QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 036 (5756) **22 fevral** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# “Cənub Qaz Dəhlizi” - Azərbaycandan dünyaya enerji təminatı

*İlham Əliyev: “Enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq*

Səh 3




5

**Əli Əhmədov Dünya Bankının Qafqaz üzrə regional direktoru ilə görüşüb**



6

**Əfqanıstan müharibəsi veteranları Prezidentə minnətdarlıq edirlər**



8

**Bəşəriyyətə qarşı qanlı cinayət - Xocalı soyqırımı**



# Əfqanıstan müharibəsində həlak olan və itkin düşmüş hərbi qulluqçuların ailələrinə verilən Prezident təqaüdü artırılıb



***Fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb.***

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il martın 1-dən 300 manat müəyyən edilib.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ağdam rayonunun Kolqışlaq-Mirəşelli-Əhmədağalı-Çıraxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunuldu.

Ruslan Auşev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərindən məmnunluqla danışdı və Ulu Öndərin xatirəsini daim yad etdiyini bildirdi. Prezident İlham Əliyev Ruslan Auşevin Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və onun Ulu Öndərin xatirəsi ilə bağlı dediyi xoş sözlərə görə təşəkkürünü bildirdi.

Ruslan Auşev Bakıda gördüyü inkişaf proseslərinin tədbir iştirakçılarında xoş təəssürat yaratdığını vurğuladı, onların bu tədbirdə iştirak etmək üçün böyük məmnuniyyətlə Bakıya gəldiklərini dedi.



# Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21- də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Cənub Qaz Dəhlizi" - Azərbaycandan dünyaya enerji təminatı

## *İlham Əliyev: "Enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq*

***Məlum olduğu kimi, fevralın 20-də Bakıda Heydər Əliyev Mərkəzində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.***




Tədbirdə "Cənub Qaz Dəhlizi"nin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən, Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər.

Bir məsələni də nəzərə almaq lazımdır ki, Azərbaycanın Avropada nüfuza sahib olması, həmçinin, Avropa ilə əməkdaşlığının dərinləşməsi hazırda Avropa ilə gərgin münasibətlər şəraitində olan, eləcə də, qitəyə qaz tədarük edən Rusiyanın ürəyincə olmaya bilər. Bu baxımdan, "Cənub Qaz Dəhlizi" layihəsinin Azərbaycanla Rusiya arasında münasibətlərə hansısa təsir etməsi ehtimalı sual doğuran bir məsələdir. Avropa ilə Azərbaycan arasında təbii qaz sahəsində əməkdaşlıq hər iki tərəfin marağındadır. Avropa öz qaz tədarükünü artırmaq, Azərbaycan isə, öz təbii resurslarını satmaq istəyir.

Bu gün Azərbaycanın "Şahdəniz" kimi böyük qaz yatağı var və Azərbaycan bu qazı satmaq istəyir. Qaz elə bir şeydir ki, çıxarılırsa, ixrac edilməlidir. Çünki bunu saxlamaq üçün qaz anbarlarını bu qədər yükləmək qeyri-mümkündür. Əgər qaz ixrac edilməsə, bu, sabah problemlər yarada bilər. Eyni zamanda, qazın ixrac edilməsi Azərbaycanın iqtisadi inkişafı üçün vacib əhəmiyyət kəsb edir. Digər tərəfdən, Azərbaycan Rusiyanın qaz ixrac etdiyi ölkələrə qaz tədarük etmir. Burada müəyyən maraqlar da nəzərə alınır. Yəni Azərbaycan öz təbii qazını Avropaya ixrac etməklə, Rusiyaya mane olmur. Azərbaycan Rusiya ilə də qaz tədarükü sahəsində əməkdaşlıq edir. Bu gün Rusiya ilə Azəbaycan arasında Bakı - Novo-Filya qaz kəməri mövcuddur. Hətta Rusiya elektrik enerjisinin Azərbaycan vasitəsilə İrana satılması məsələsi də nəzərdə tutulur. Bu baxımdan, Azərbaycan, Rusiya və İran xarici işlər nazirlərinin görüşü də gözlənilir. Rusiya ilə Azərbaycan digər sahələrdə də strateji əməkdaşlıq edirlər. Bu baxımdan, "Cənubi Qaz Dəhlizi"ndə Azərbyacnın əsas oyunçu olması Kremli narazı salmamalıdır.

### "Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir"

Toplantıda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir: "Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin eyni zamanda, hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq".

Dövlətimizin başçısı qeyd edib ki, böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir: "Ona görə də, mən əminəm ki, "Şahdəniz" "Cənub Qaz Dəhlizi" üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq. Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Mən, xüsusilə, nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq".

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, məhz bu inamın nəticəsidir ki, Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır: "Bunun yarısı xarici investisiyalardır. Bu, bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən, Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən, 10 ən islahatçı ölkədən biriyik".

### "Xarici enerji mənbələrindən asılı olan dövlətlər əmin olmalıdırlar ki, "Cənub Qaz Dəhlizi" marşrutu dayanıqlı və uzunmüddətli olacaq"

Prezident İlham Əliyev çıxışı zamanı rurğulayıb ki, xarici enerji mənbələrindən asılı olan dövlətlər əmin olmalıdırlar ki, "Cənub Qaz Dəhlizi" marşrutu dayanıqlı və uzunmüddətli olacaq: "Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənaye inkişafını planlaşdırmalıdır. Eyni zamanda, təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməzlər. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir".

Dövlət başçısı bildirib ki, Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin eyni zamanda, hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir. Ona görə də, mən əminəm ki, "Şahdəniz" "Cənub Qaz Dəhlizi" üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq".

### "Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir"

Ölkə başçısı qeyd edib ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır: "Mən xüsusilə, nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq. Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, magistral yollar, Xəzər dəniz gəmiçiliyi, hava limanları - bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olub. Beləliklə, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara yönəltmişik. Çünki nəqliyyat layihələri, eləcə də, enerji layihələri ölkələri birləşdirir. Ölkələr əlaqəli, qarşılıqlı şəkildə bir-birindən asılı olur və hər kəs mənfəət əldə edir. Ona görə də, biz enerji təhlükəsizliyi layihələrinin faydasını digər sahələrdə görürük".

### "Qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq"

"Cənub Qaz Dəhlizi"nin çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihə olduğunu deyən Prezident İlham Əliyev onu da bildirib ki, bu layihəni reallaşdırmaqla bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır: "Qeyd etdiyim kimi, 4 il bundan əvvəl, bu ərazidə "Cənub Qaz Dəhlizi"nin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq, Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır".

Beləliklə, bütün bu uğurlar, onu deməyə əsas verir ki, Azərbaycanın enerji siyasəti ona hesablanıb ki, öz maraqları ilə başqa regional və qlobal güc mərkəzlərinin, müxtəlif ixracatçıların, eləcə də, qaz istehlakçılarının maraqlarının balansını tapa bilsin. Rəsmi Bakı buna nail olur, bu yolla öz enerji sektorunu Avropa İttifaqı məkanının enerji sisteminə inteqrasiya edir.

**RƏFİQƏ KAMALQIZI**

# Birinci vitse-prezident Mehriban Əliyeva həyatının mənasını Vətəninə və xalqına xidmətdə görür

***Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük rəğbət və nüfuz qazanıb. Bunun səbəbi təkcə tutduğu yüksək vəzifə və mövqe ilə bağlı deyil. Onu köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında tez-tez görmək olar. Talassemiyalı uşaqlar, erməni işğalı nəticəsində yurd yerindən didərgin salınmış məcburi köçkünlər Mehriban Əliyevaya pənah yeri kimi baxır və öz ümidlərində yanılmırlar.***



Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunmasından iki il keçir. AZƏRTAC bununla bağlı Birinci vitse-prezidentin Vətəni və xalqı qarşısında xidmətlərini bir daha xatırladır, məhsuldar və zəngin fəaliyyətinin diqqət çəkən bəzi məqamlarına nəzər salır.

Ötən iki ildə Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. O, əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirib. Mehriban xanım Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etdi. Müvafiq qurumlar qarşısında məsələni belə qoydu ki, bu sahədə işlər iki istiqamətdə qurulmalıdır: yeni mənzillər, yeni binalar tikilməli və inşa olunan binalar keyfiyyət standartlarına tam cavab verməlidir. İlkin mərhələdə dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin iş yerləri ilə təmin etmək vəzifəsi qarşıya qoyuldu.

Çox keçmədən Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməli qoyuldu. Daha sonra qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillər verildi. İş adamlarının yardımı ilə 214 ailə yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürüldü. Bir qədər sonra Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda yeni binaların istifadəyə verilməsi ilə daha 725 məcburi köçkün ailəsinin mənzil şəraiti yaxşılaşdırıldı. Bu, Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Fondun bu sahədə gördüyü işlər sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna əhəmiyyəti var. 2003-cü ildən indiyədək ölkədə 3 mindən çox məktəb tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Beləliklə, ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Azərbaycanda birinci xanım institutu faktiki olaraq İlham Əliyev Prezident seçildikdən sonra formalaşıb. Dövlət başçısının xanımı Mehriban Əliyeva uzun illərdir ki, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, çiynini sosial problemlərin yükü altına verir, bir çox qlobal tədbirlərin təşkilatçılığını cəsarətlə üzərinə götürür. Biz onu hadisələrin mərkəzində, insanların arasında görməyə adət etmişik. Mehriban Əliyevanın birinci xanım missiyasına yanaşması onun təbiətindən və xarakterindən doğan bir yanaşmadır. O, həyatının mənasını Vətənə, xalqa və insanlara xidmətdə görür.

Bütün bunlara görə də Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması cəmiyyətdə məntiqi qərar kimi qarşılandı. Bundan bir neçə gün sonra "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışan Mehriban Əliyeva deyirdi: "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Elə bu məramla da özünün ömür kitabını yazır, hər ötən il isə bu kitabı daha parlaq, daha şərəfli sətirlərlə zənginləşdirir. Mehriban xanımın təşəbbüsü, dəstəyi ilə həyata keçirilən çoxsaylı və irimiqyaslı layihələr böyük rezonans doğurur. Təhsil, səhiyyə, mədəniyyət sahəsində müxtəlif layihələrin reallaşdırılması bu sahələrin inkişafına misilsiz töhfələr verir. Ötən müddətdə onun dəstəyi ilə yüzlərlə məktəb,



xəstəxana tikilib. Saysız-hesabsız xeyriyyəçilik tədbirləri isə onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunu şəfqət və mərhəmət ünvanına çevirib.

Fondun mədəniyyətimiz, incəsənətimizlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna rola malikdir. Azərbaycanın birinci xanımı ölkəmizdəki qədim tarixi abidə və ziyarətgahların, məscid və ibadətgahların, dini abidələrimizin bərpası və yenidən qurulması, abadlaşdırılması istiqamətində misilsiz xidmət göstərir. Müstəqillik tariximizin əlamətdar hadisələrini, ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi birinci Avropa Oyunları, eləcə də IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitələrinin sədri kimi fədakar fəaliyyəti Mehriban Əliyevanı xalqının gözündə bir daha ucaldıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi indi də minnətdarlıq hissi ilə xatırlanır. Bu, bir daha göstərir ki, onun Vətənə xidmət fəlsəfəsinin təməlində, fəaliyyətinin əsasında mənsub olduğu xalqa, millətə sevgi dayanır. O, əzmkar fəaliyyətini həm də sivil dünyada sülhün, sabitliyin, sivilizasiyalararası dialoqun, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəldib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar bu sıradandır. Versal sarayının bir hissəsinin və Strasburqda orta əsrlərə aid kilsənin, Luvr muzeyi qalereyasından birinin, Roma katakombalarının bərpası, Həştərxanda Azərbaycan-Rusiya dostluq körpüsünün tikilməsi, Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması və digər layihələr Heydər Əliyev Fondunun xeyriyyəçilik işlərinin heç də tam olmayan siyahısıdır. Onun rəhbəri olduğu Fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və Azərbaycanın təbliğidir.

Təsadüfi deyil ki, beynəlxalq ictimaiyyət Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirir, onun Şərq ölkələrində siyasətin yalnız kişi işi olması barədə stereotipi dağıtdığını etiraf edirlər. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Fransanın "Şərəf legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Rusiyanın Yüzillik Messenatları Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni onun dünyadakı nüfuzunun göstəricisidir. Bu təltiflərin hər birinin arxasında bilik, ağıl və iradə, peşəkarlıq və təcrübə, prinsipiallıq və xeyirxahlıq, ən əsası xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə sevgi dayanır. Onun ən böyük mükafatı isə Azərbaycan xalqının rəğbəti və sevgisidir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva siyasi karyerası və ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə və ustalıqla gəlir. Hər kəs inanır ki, Mehriban xanım hazırda qüdrətli, nüfuzlu dövlətə çevrilmiş Azərbaycanın gələcək inkişafı, xalqımızın firavanlığı naminə çoxşaxəli fəaliyyətini bundan sonra da əzmlə davam etdirəcək.

## Əli Əhmədov Dünya Bankının Qafqaz üzrə regional direktoru ilə görüşüb



Dünən Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov Dünya Bankının Qafqaz üzrə regional direktoru Mercy Tembonla görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə Baş nazirin müavini keyfiyyətli səhiyyə xidmətinin təmin edilməsinin dövlətin həyata keçirdiyi sosial siyasətin təməl prinsiplərindən biri olduğunu bildirib. O, icbari tibbi sıgortanın tətbiqi ilə əlaqədar çox ciddi islahatların həyata keçirilməsinin zəruriliyi barədə qonaqlara məlumat verib.

Mercy Tembon Dünya Bankı Qrupunun Azərbaycanla sıx və davamlı tərəfdaşlığa verdiyi əhəmiyyəti vurğulayaraq ölkənin inkişaf proqramının icrasına, Azərbaycanın dayanaqlı iqtisadi artım istiqamətində irəliləməsi sahəsində hər cür dəstək göstərə biləcəklərini söyləyib. Regional direktor icbari tibbi sığorta ilə bağlı institusional strukturun formalaşdırılması və imkanlarının genişləndirilməsi, universal tibbi təminata çatmaq üçün səhiyyənin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsi, tibbi xidmətin təşkili və keyfiyyətinin yaxşılaşdırılması, o cümlədən səhiyyədə insan resurslarının gücləndirilməsi məqsədilə həm klinik, həm də idarəetmə sahəsində bacarıqların artırılması ilə bağlı hər cür dəstəyə hazır olduqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələri qurulub"



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 21-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Əlaqələrin inkişafında yüksək səviyyəli görüşlərin mühüm rolu olduğunu vurğulayan Baş nazir bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladıb. Baş nazir bildirib ki, Dünya Bankı ilə Azərbaycan arasında kənd təsərrüfatı, təhsil, səhiyyə sahələrinin, məhkəmə sisteminin və digər sahələrin avtomatlaşdırılması, özünüməşğulluğun daha da inkişaf etdirilməsi üzrə layihələrə, əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılır. Bu layihələrin həyata keçirilməsinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib: "Bu günə qədər Azərbaycan ilə Dünya Bankı arasında 50-yə yaxın layihə reallaşıb, 10-a yaxın layihə isə həyata keçirilməkdədir. Hesab edirəm ki, sizin ölkəmizə səfərinizin, keçirilən səmərəli görüşlərin bu əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyəti var".

Novruz Məmmədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edən Mersi Tembon ölkəmizdə çox qısa müddət ərzində nail olunan inkişafdan məmnunluğunu bildirib. O, bu uğurların əldə olunmasında Azərbaycan dövlətinin və xalqının qətiyyətini xüsusi vurğulayıb və bunu təqdir etdiklərini deyib.

## Bəhruz Quliyev: "Cənub Qaz Dəhlizi geniş beynəlxalq əməkdaşlıq layihəsidir"



"Paytaxtımızda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında irəli sürülən fikirlər bir daha təsdiq edir ki, Azərbaycan hazırda dünyanın ən aparıcı enerji təchizatçılarından biridir və bütün bu uğurlar ilk növbədə, yürüdülən uğurlu iqtisadi siyasətin nəticəsidir". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a açıqlamasında "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib.

Siyasi ekspertin sözlərinə görə, əbəs deyil ki, toplantıda iştirak edən Prezident İlham Əliyev Azərbaycana yatırılmış 250 milyard dollar investisiyanın ölkə iqtisadiyyatını şaxələndirməsinə, islahatları uğurla həyata keçirməsinə, yaxşı biznes mühitinin yaranmasına imkan verdiyini deyib və eyni zamanda, enerji gəlirlərindən düzgün istifadə sayəsində infrastrukturlara sərmayə yatırılmasına, o cümlədən, əhalinin yaşayış səviyyəsini qaldırılmasına nail olunduğunu vurğulayıb: "Bu, ilk növbədə belə deməyə əsas yaradır ki, mühüm enerji layihələrinin, xüsusilə Cənub Qaz Dəhlizinin məhz Azərbaycan tərəfindən təşəbbüskar olaraq reallaşdırılması xalqımızın rifah halının daha da yaxşılaşdırılmasına, iqtisadi uğurların sosial uğurlara keçid etməsinə münbit şərait yaradıb".

Bəhruz Quliyev bütün qeyd olunanlarla yanaşı, Azərbaycanın dünya birliyində etibarlı tərəfdaş kimi qəbul olunduğunu bildirib. "Əbəs deyil ki, dövlətimizin başçısı xarici investisiyaların ölkəmizdə100 faiz qorunduğunu vurğulayıb. Bu isə əlbəttə ki, Azərbaycanda biznes mühitinin ən yüksək səviyyədə təkmilləşməsinin, inkişaf etməsinin göstəricisidir", deyə qeyd edən "Səs" Media Qrupun rəhbəri əlavə edib ki, artıq, enerji resurslarının daha geniş əhatə dairəsində şaxələndirilməsi istiqamətində infrastruktur şəbəkələri yaradılmaq üzrədir: "Bildiyimiz kimi, Azərbaycan neft və qaz ölkəsi olaraq iqtisadi strategiyasının əsaslarını qoyub və bunun nəticəsidir ki, 1994-cü ildən hazırkı dövrə qədər ölkəmiz milyardlarla dollarlıq sərmayələr cəlb edib. Çünki sərmayələr yatıran ölkələr də yaxşı bilirdilər ki, Azərbaycan eyni zamanda, enerji resurslarının nəqli üçün əhəmiyyətli coğrafiyaya malik tranzit ölkədir. Artıq enerji siyasəti üzərində qurulan strategiyamız qarşıdakı illərdə daha nəhəng layihələrin reallaşdırılmasına imkan verəcək. Cənab İlham Əliyev toplantıdakı çıxışında bu fikirlərini deyib və qeyd edib ki, Cənub Qaz Dəhlizinin dörd elementindən üçü artıq hazırdır və istifadə olunur və o cümlədən, ölkəmiz Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbə olaraq qitənin enerji xəritəsini dəyişdirir. Bu, çox önəmli bir hadisədir və dövlət başçımız bununla bir daha təsdiq edib ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihədən yararlanan ölkələr isə, əlbəttə ki, yalnız uğurlu iqtisadi siyasətlərini davam etdirməklə imkanına malik olacaqlar.Yeni, Azərbaycanın ideyaverici və təşəbbüskar ölkə olaraq bu cür strategiya yürütməsi xarici ölkələrin, investorların ölkəmizə olan maraqlarını daha da artırır. Təsəvvür edin, Azərbaycan 2,6 trilyon kubmetr təşkil edən nəhəng qaz ehtiyatlarına malik olan bir ölkədir və xarici investorlar, o cümlədən, sözügedən layihədə yer alan dövlətlər əlbəttə ki, bu reallığı diqqətlərində saxlamaqdadırlar". "Qazanan isə Azərbaycan dövləti və xalqı olacaq", deyən Bəhruz Quliyev son olaraq qeyd edib ki, layihədən əldə ediləcək gəlirlər xalqımızın sosial-iqtisadi rifahının təminatına və s. mühüm məsələlərə yönləndiriləcək: "Əlbəttə, bütün bunlar ən yaxın perspektivdə həyata keçiriləcək prioritet planlardır ki, artıq onun ilkin uğurları da göz önündədir".

## Vüqar Rəhimzadə: Cənub Qaz Dəhlizi Avropanın təbii qazla təminatında əvəzedilməz layihə olacaq



Bu gün Azərbaycan əbəs yerə beynəlxalq aləmdə "sabitlik adası" adlandırılmır. Son illərdə dünyanın siyasi mənzərəsinə nəzər yetirsək, kifayət qədər mürəkkəb proseslərin getdiyinin şahidi olarıq. Bütün bunlara baxmayaraq, ölkəmiz uzun illərdir ki, öz inkişaf dinamikasını qoruyub saxlayır, xarici sərmayədarlar üçün etibarlı tərəfdaş rolunda çıxış edir. Təbii ki, bu uğurların kökündə ulu öndər Heydər Əliyevin ideyaları dayanır. Məhz 1994-cü ildə Ümummilli Liderin təşəbbüsü ilə imzalanan "Əsrin müqaviləsi" dünyanın nüfuzlu xarici şirkətlərini Azərbaycana topladı və uğurlu işbirliyinin əsasını qoydu. Elə o vaxtdan başlayaraq dünya birliyi ölkəmizin investisiya yatırmaq üçün əlverişli məkan olduğunu gördü. Zaman keçdikcə bu işbirliyi daha da möhkəmləndi, regiona və dünyaya sülh və təhlükəsizlik, ən əsası inkişaf və böyük gəlirlər vəd edən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələr işə düşdü. Bu gün isə Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində xarici sərmayədarların ölkəmizə olan inamı və etibarı daha da artıb, mövcud əməkdaşlıq şaxələndirilib. 2014-cü ildə təməli qoyulan, 2018-ci ildə möhtəşəm açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi meqalayihəsi bunun əyani sübutudur.

"Fevralın 20-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında çıxış edən Azərbaycan Prezidenti bu və digər məsələlərə toxunub, neftdən gələn gəlirlərin iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəldildiyini bildirib. "Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu, bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq" - deyən ölkəmizin başçısı neft-qaz sektorunun önəmini vurğulayıb. Bu sözləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, Cənub Qaz Dəhlizi ölkəmizin əməkdaşlıq imkanlarını daha da artıracaq, Avropanın təbii qazla təminatında əvəzedilməz layihə olacaq: "Ölkə başçısının vurğuladığı kimi, Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir və enerji resurslarının şaxələndirilməsi bütün iştirakçı ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Cənub Qaz Dəhlizi Avropa üçün yeni mənbə olmaqla yanaşı, həm də etibarlı və təhlükəsizdir. Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini dəyişəcək bir layihədir. Hesab edirəm ki, gələcəkdə bu layihəyə qoşulmaq istəyən ölkələrin sayı daha da artacaq".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, Azərbaycan Prezidentinin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında səsləndirdiyi fikirlər ölkəmizə olan inamı daha da artırır: "Prezidentin qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Təbii ki, enerji təhlükəsizliyi olmadan hansısa milli təhlükəsizlikdən danışmaq çətindir. "Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq" - deyən ölkə başçısı tərəfdaş ölkələri əmin edib ki, Cənub Qaz Dəhlizi etibarlı layihədir. Hesab edirəm ki, ölkəmizin dünya miqyasında nüfuzunu, çəkisini artıran amillərdən biri də məhz budur. Azərbaycan hər zaman verilən vədləri yerinə yetirir, möcüzə kimi görünən layihələri reallaşdırır".

## Yeni Azərbaycan Partiyanın mərkəzi qərargahında elektron kitabxana yaradılıb




Yeni Azərbaycan Partiyanın mərkəzi qərargahında elektron kitabxana (ebook.yap.az) yaradılıb. Elektron kitabxanada müxtəlif sahələr üzrə çoxsaylı nəşrlər yerləşdirilib. Belə ki, e-kitabxanada müxtəlif kateqoriyalar üzrə kitablar elektron qaydada təqdim olunur. Bu kateqoriyalara Yeni Azərbaycan Partiyasının nəşrləri, eləcə də, "Fəlsəfə və sosiologiya", "Tarix", "İqtisadiyyat", "Siyasət və hüquq", "Elm və təhsil", "Mədəniyyət və turizm", "Dilçilik", "Ədəbiyyatşünaslıq", "Bədii ədəbiyyat", "İnformatika və rabitə", "Din", "Təbiət elmləri", "Kənd və meşə təsərrüfatı", "Tibb və səhiyyə", "Hərbi iş", "İdman", "Ekologiya və neft" və "Müxtəlif kitablar" daxildir.

E-kitabxanada Yeni Azərbaycan Partiyasının nəşrlərindən "Heydər Əliyev", "İlham Əliyev", "Yeni Azərbaycan Partiyası", "Azərbaycan müasir dünyada", "Heydər Əliyev ideyaları və dərin islahatlar strategiyası" və digər kitablar elektron qaydada təqdim olunur. "Siyasət və hüquq" kateqoriyasında isə "İlham Əliyev: İnkişaf məqsədimizdir" çoxcildliyi və digər ədəbiyyatlardan geniş oxucu kütləsi istifadə edə bilər.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 fevral 2019-cu il

# Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə təntənəli mərasim keçirilib

**Fevralın 21-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Silahlı Qüvvələrin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, veteranlar və əcnəbi qonaqlar iştirak ediblər.**





Tədbirdə ümummilli lider Heydər Əliyevin, Əfqanıstan müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək bildirib ki, digər müharibələrdə olduğu kimi, Əfqanıstan müharibəsində döyüşmüş azərbaycanlılar da çoxsaylı qəhrəmanlıq nümunələri göstəriblər. Sovet qoşunlarının tərkibində 9 mindən artıq azərbaycanlı bu müharibədə iştirak edib. Onlardan 208 nəfər həlak olub, 420 nəfər əlil olub, 7 nəfər isə itkin düşüb. Təsadüfi deyil ki, "Qırmızı döyüş bayrağı" ordeni ilə iki dəfə təltif olunan dörd döyüşçüdən biri azərbaycanlıdır. Həmçinin bir həmyerlimiz "Lenin" və "Qırmızı ulduz" ordeni, dörd nəfər iki dəfə "Qırmızı ulduz" ordeni ilə təltif olunub.

Xidmət rəisi deyib ki, bu müharibədə zəngin döyüş təcrübəsi toplamış azərbaycanlılar 1988-ci ildən 1994-cü ilədək Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda fəal iştirak ediblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdikləri fədakarlığa və şücaətə görə 17 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 36 nəfər "Azərbaycan bayrağı" ordeninə, müxtəlif dövlət təltiflərinə və medallara, həmçinin bir neçə hərbi qulluqçu general ali rütbəsinə layiq görülüb. Onların bir qismi döyüşlərdə həlak olub, itkin düşüb və ya sonradan vəfat ediblər.

Bu gün ölkəmizdə yeddi minə yaxın Əfqanıstan müharibəsi veteranının olduğunu vurğulayan Xidmət rəisi onların cəmiyyət həyatında fəal iştirak etdiklərini, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işinə və hərbi hazırlığına mühüm töhfələr verdiklərini deyib. Xüsusi qeyd olunub ki, xalqımızın ümummilli lideri Heydər Əliyev də Əfqanıstan müharibəsi iştirakçılarına daim diqqət və qayğı göstərib. Ulu Öndərin Əfqanıstan müharibəsinin iştirakçıları ilə görüşləri, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncamlar dahi rəhbərin bu qəbildən olan şəxslərə diqqət və qayğısının təzahürüdür. Əfqanıstan müharibəsinin veteranları və əlilləri Azərbaycanda müharibə iştirakçıları üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə hüququna malikdirlər. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də veteranlara, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarına yüksək diqqət və qayğı göstərir.

MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşev bildirib ki, başa çatmasından 30 il keçməsinə baxmayaraq, Əfqanıstan müharibəsi həyatımızın unudulmaz mərhələsi kimi yadda qalıb. Bu müharibə bizim üçün böyük həyat dərsi, fədakarlıq dövrü idi.

Azərbaycanda Əfqanıstan müharibəsi veteranlarına göstərilən hərtərəfli diqqət və qayğıdan məmnunluqla söz açan R.Auşev sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı ölkəmizdə keçirilən bu tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Əfqanıstan müharibəsinin başa çatmasının 30-cu ildönümü münasibətilə veteranları təbrik edərək bildirib ki, həmin müharibənin iştirakçıları qanlı döyüşlərdə əsl fədakarlıq göstərərək, üzərlərinə düşən məsul vəzifəni layiqincə yerinə yetiriblər. Həmin müharibədən qayıdan azərbaycanlı döyüşçülər dinc həyata başlamaq istəsələr də, təəssüf ki, yeni cəbhədə döyüşməli oldular. Əfqanıstan müharibəsinin azərbaycanlı veteranları doğma Vətənimizin ərazi bütövlüyü uğrunda Ermənistan silahlı qüvvələrinə qarşı vuruşmaq məcburiyyətində qaldılar. Torpaqlarımız uğrunda döyüşlərə ön sıralarda gedən igid döyüşçülər məhz Əfqanıstan cəbhəsinin odlu-alovlu yolunu keçmiş veteranlar idi.

Əfqanıstan müharibəsinin veteranlarının bu gün ləyaqətli vətəndaşlar kimi Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayan Prezident Administrasiyasının şöbə müdirinin müavini deyib ki, bu müharibənin iştirakçıları istər Azərbaycanda, istərsə də postsovet məkanında baş verən münaqişələrlə bağlı da obyektiv və qəti mövqe nümayiş etdirməlidirlər. Bu münaqişələrin aradan qaldırılması istiqamətində bütün veteranların, o cümlədən beynəlxalq təşkilatların rolu, mövqeyi qəti və aydın olmalıdır, onlar bu işə fəal töhfə verməlidirlər. Əgər bu gün Azərbaycan təcavüzə məruz qalıbsa, Ermənistan Azərbaycanın ərazilərini işğal edərək, bir milyondan çox vətəndaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salıbsa bu təcavüzə obyektiv qiymət verilməli, işğalçı ölkə qınanmalı, beynəlxalq səviyyədə layiqli cəzasını almalıdır. Biz bu məsələyə qiymət verilməsində tanınmış ictimai xadimlər kimi müharibə veteranlarının, o cümlədən vaxtilə Əfqanıstan müharibəsində iştirak etmiş şəxslərin fəallıq göstərəcəklərini gözləyirik.

Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə, veteranlara daim qayğı göstərdiyini, onların sosial-məişət problemlərinin həllini diqqətdə saxladığını vurğulayan Ə.Mehdiyev bildirib: "Bu tədbirin keçirildiyi vaxt Prezident İlham Əliyev bir Fərman və bir Sərəncam imzalayıb. Fərman Əfqanıstan müharibəsində həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinə verilən Prezident təqaüdünün məbləğinin artırılması ilə bağlıdır. Sərəncam isə Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin fəaliyyətinin gücləndirilməsi məqsədilə bu quruma Prezidentin ehtiyat fondundan bir milyon manat vəsaitin ayrılması haqqındadır. Bu sərəncamlar Azərbaycan Prezidentinin Əfqanıstan müharibəsi veteranlarına ali diqqət və qayğısının daha bir təzahürüdür. Bu, həmçinin bir daha təsdiq etdi ki, Vətəni, xalqı üçün xidmət göstərən insanlara diqqət bundan sonra da davam etdiriləcək".

Veteranlarımızın, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarının bu gün də Azərbaycanda mühüm vəzifələr yerinə yetirdiklərini diqqətə çatdıran Prezident Administrasiyasının rəsmisi bildirib ki, onlar gənc nəslin hərbi-vətənpərvərlik ruhunda yetişməsində, dövlətimizin sosial-iqtisadi inkişafında, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun artırılmasında daim fəallıqları ilə seçilirlər.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev müdafiə naziri, general-polkovnik Zakir Həsənovun tədbir iştirakçılarına və Əfqanıstan müharibəsi veteranlarına ünvanlanan təbrik məktubunu oxuyub.

Əfqanıstan müharibəsinin iştirakçısı, iki dəfə "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif olunmuş Şakir Əhmədov xatirələrini bölüşüb, ölkəmizdə onlara göstərilən yüksək diqqət və qayğıdan danışıb. O, Azərbaycanda gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işində veteranların daim fəal iştirak etdiklərini vurğulayıb. Ş.Əhmədov Əfqanıstan müharibəsi veteranlarının torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə daim hazır olduqlarını bildirib.

Çıxışlardan sonra Əfqanıstan müharibəsi, eləcə də ölkəmizdə bu müharibənin iştirakçısı olan veteranlara göstərilən dövlət qayğısından bəhs edən film nümayiş olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

# Əfqanıstan müharibəsi veteranları Prezidentə minnətdarlıq edirlər



Prezident İlham Əliyev Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam və Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb. Belə ki, sərəncamda qeyd olunur ki, Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi, habelə Birliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinə 1 milyon manat ayrılsın.

O cümlədən, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il martın 1-dən 300 manat müəyyən edilib. Qeyd edək ki, həmin ailələr 220 AZN yerinə 300 AZN aylıq təqaüd alacaqlar.

Dövlət başçısının verdiyi sərəncam və fərmanı ilə bağlı SİA-ya açıqlama verən Əfqanıstan müharibəsinin veteranı, "Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu"nun prezidenti Sərraf Orucov qeyd edib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı bütün sosial təbəqələri, o cümlədən, Əfqanıstan müharibəsində iştirak etmiş veteranları, həmçinin bu müharibədə həlak olmuş şəxslərin ailələrini əhatə edib. "Biz son vaxtlar İlham Əliyev cənabları tərəfindən aparılan sosial islahatların inqilabi və uğurlu nəticələrinin şahidləri olmaqdayıq", deyə bildirən S.Orucov həmçinin bildirib ki, onlar bu diqqət və qayğıdan qürur və fərəh hissləri keçirirlər: "Bu, Prezident İlham Əliyevin hər zaman öz vətəndaşının yanında olmasının bariz sübutudur. Bizlər Əfqanıstan müharibəsinin veteranları olaraq, bundan sonra da Ali Baş Komandanımız, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, dövlətimizin möhkəmləndirilməsi istiqamətində uğurlu fəaliyyətimizi davam etdirəcəyik. Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinə 1 milyon manatın ayrılması, habelə bu müharibədə iştirak etmiş və həyatlarını itirmiş şəxslərin ailələrinə verilən təqaüdün artırılması növbəti dəfə sübut edir ki, ölkə rəhbərimiz hər bir azərbaycanlının prezidentidir. Ümumiyyətlə, istər aztəminatlı ailələrə birdəfəlik sosial yardımın verilməsi, təqaüdlərin artırılması, tələbələrə göstərilən qayğı, şəhid ailələrinə verilən təqaüdlərin hər biri məhz bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır. Biz, ölkə rəhbərimizə öz təşəkkürlərimizi, sonsuz minnətdarlığımızı çatdırırıq".



Əfqanıstan müharibəsinin digər veteranı, Əfqanıstan Baş hərbi prokurorluğunda tərcüməçi işləmiş, "Şərəf" ordenliElxan Qasımov isə sərəncam və fərmanlara bağlı bildirib ki, bu qərarlar bütövlükdə Azərbaycan xalqına göstərilən diqqət və qayğının bariz nümunəsidir. "Biz fəxr edirik ki, cənab İlham Əliyev hər bir azərbaycanlıya özəl diqqəti və qayğısı ilə yanaşır", deyən E.Qasımov həmçinin bildirib ki, dövlət başçımızın apardığı məqsədyönlü, mütərəqqi və yalnız uğurlara əsaslanan sosial siyasəti demək olar ki, bütün sahələri və bütün vətəndaş təbəqələrini əhatə etməkdədir: "Prezidentin Əfqanıstan müharibəsi veteranlarına və bu müharibədə həlak olanların ailələrinə qayğısı davamlıdır. Əlbəttə, biz də bu siyasətin ətrafında dövlətimiz, Vətənimiz, xalqımız üçün var gücümüzlə çalışacaq, töhfələrimizi verəcəyik. Əfqanıstan müharibəsi veteranları və bu müharibədə həlak olan şəxslərin ailələri Prezident İlham Əliyev cənablarına öz sonsuz minnətdarıq hisslərini çatdırırlar".

***Rövşən Nurəddinoğlu***

# “Bakı elektron şəhərə çevrilməlidir”

*Müsahibimiz AMEA-nın akademik-katibi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyevdir*

***- Rasim müəllim, dünyada ən dinamik inkişaf edən informasiya-kommunikasiya texnologiyaları sahəsi respublikamızda da prioritet sahə olmaqla, daim diqqət və qayğı ilə əhatə edilib. Bu sahədə həyata keçirilən tədbirlər hansı nailiyyətləri verib?***

- Bəli, bu gün dünya iqtisadiyyatının və onun milli seqmentlərinin inkişafının əsas hərəkətverici qüvvəsi İKT-dir. İqtisadiyyatın və bütövlükdə, cəmiyyət həyatının heç bir sahəsi İKT-nin effektli tətbiqi olmadan inkişaf edə və rəqabətədavamlı ola bilməz. Eyni zamanda, İKT sektorunun özü də müasir iqtisadiyyatın innovativ istiqamətinin - informasiya və biliklər iqtisadiyyatının əsasını təşkil edir. Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dünyada gedən prosesləri uzaqgörənliklə qiymətləndirərək, İKT sektorunun, informasiya və biliklər iqtisadiyyatının inkişafını ölkəmizdə prioritet sahə elan etmişdir. Azərbaycanda bu sahənin inkişafı ilə bağlı milli strategiyalar, strateji yol xəritələri, dövlət proqramları, qanunvericilik aktları qəbul edilib. Həmin konseptual sənədlərdə qeyd etdiyim sahələrin inkişafı üçün bir sıra hədəflər və vəzifələr müəyyənləşdirilib. Buna uyğun olaraq, ölkəmizdə informasiya cəmiyyətinin, elektron dövlətin, informasiya və biliklər iqtisadiyyatının dayanıqlı inkişafı istiqamətində genişmiqyaslı kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin nəticəsi olaraq, Azərbaycanda genişzolaqlı internet infrastrukturu inkişaf etdirilmiş, vətəndaşların təhlükəsiz, keyfiyyətli və ucuz internet xidmətlərindən istifadəsinin təmin olunması istiqamətində bir sıra layihələr həyata keçirilmişdir. Bunun nəticəsidir ki, artıq ölkə əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir. Bu da Azərbaycanda elektron xidmətlərin həcminin artmasına, vətəndaşların bu xidmətlərdən daha yaxşı istifadə etmələrinə gətirib çıxarır. Artıq vətəndaşlar bir sıra dövlət xidmətlərindən heç bir bürokratik əngəl, zaman və məkan problemi olmadan, rahat şəkildə istifadə edə bilirlər. “Bir pəncərə” prinsipinə əsaslanan “Elektron Hökumət” portalının fəaliyyəti, “ASAN Xidmət” modeli ölkəmizin bu sahədə uğurla həyata keçirilən və vətəndaş məmnunluğuna hədəflənən layihələrdir.

***- Bildiyiniz kimi, 2018-ci il Azərbaycanda, bütün sahələrdə olduğu kimi, İKT sahəsində də uğurlarla yadda qaldı. “Azerspace-1” telekommunikasiya peykinin orbitə çıxarılmasından 5 il sonra, “Azerspace-2”-nin də orbitə buraxılması növbəti tarixi qələbəmiz oldu. Növbəti illərdə dünyanın kosmik klubunun üzvü olan və dünyanın kosmik sənayesində mövqelərini möhkəmləndirən Azərbaycanı hansı uğurlar gözləyir?***

- Əlbəttə, Azərbaycanın telekommunikasiya peyklərinin orbitə buraxılması, ölkəmizdə kosmik sənayenin formalaşdırılması dövlət başçısının güclü siyasi iradəsindən, uzagörənliyindən və yüksək iqtisadi potensialdan xəbər verir. Bununla, ilk növbədə, Azərbaycan özünün telekommunikasiya xidmətlərinə dair ehtiyaclarını ödəyir, informasiya məkanının suverenliyini, təhlükəsizliyini daha etibarlı şəkildə qoruya bilir. Eyni zamanda, süni peyklərin xidmətlərindən istifadə etməklə, bir sıra iqtisadi məsələlərin effektli həlli üçün əvəzsiz imkanlar əldə edir.

Lakin telekommunikasiya peyklərinin imkanları Azərbaycanın ehtiyaclarının ödənilməsi ilə məhdudlaşmır. Onların mövcud resursları və potensialı imkan verir ki, dünyanın bir sıra ölkələri üçün kommersiya xidmətləri göstərilsin. Hazırda düzgün planlaşdırılmış idarəetmə nəticəsində, bu imkanlardan səmərəli şəkildə istifadə edilir. Rəsmi statistik məlumatlar da bunu təsdiq edir. Həmin məlumatların analizi göstərir ki, Azərbaycanda kosmik sənayenin həcmi ilbəil sürətlə artmaqdadır. “Azərkosmos” tərəfindən güclü beynəlxalq rəqabət şəraitində xidmət ixracı üçün yeni bazarların axtarışı, müştərilərin cəlb edilməsi istiqamətində effektli addımlar atılmaqdadır.



Bundan başqa, artıq “Azərkosmos”da Tədqiqat və İnkişaf Mərkəzi yaradılıb. Həmin mərkəzdə kosmik sənaye texnologiyaları ilə bağlı ciddi tədqiqatlar aparılır. Burada aparılan tədqiqatların nəticəsi ölkəmizdə kosmik sənayenin, proqram mühəndisliyi sənayesinin, bütövlükdə, biliklər iqtisadiyyatının inkişafına mühüm töhfə ola bilər. Bütün bunlar, onu deməyə əsas verir ki, kosmik sənaye yaxın illərdə Azərbaycan iqtisadiyyatının ən mühüm sektorlarından birinə çevriləcək.

***- Sürətlə inkişaf edən və yayılan İKT ölkəmizin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir. Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə İKT-dən istifadəyə əlverişli şəraitin yaradılması üçün daha hansı işlər görülür?***

- Məlum olduğu kimi, əhalinin İKT-nin imkanlarından səmərəli istifadə edə bilməsi üç əsas faktordan asılıdır. Əhalinin bu imkanlarla təmin olunmasına “elektron vətəndaşın formalaşdırılması” da deyilir. Bu məsələlər Azərbaycanda informasiya cəmiyyətinin inkişafına dair mövcud Milli Strategiyada da öz əksini tapıb. Birincisi, vətəndaşların yaşadığı, işlədiyi, təhsil aldığı, istirahət etdiyi və s. məkanlarda yüksək səviyyəli İKT, o cümlədən, internet infrastrukturu yaradılmalıdır. Azərbaycanda bu istiqamətdə bir sıra mühüm işlər həyata keçirilib və müvafiq işlər hazırda da davam etdirilir.

İkincisi, vətəndaşlar İKT vasitələrindən, o cümlədən İnternet, kompüter, smartfon və s. avadanlıqlarla təmin edilməlidir. Hazırda Azərbaycanının dövlət müəssisələrində, elm və təhsil sistemində, istehsal və xidmət sferalarında kompüterləşmə və internet təminatı səviyyəsi çox yüksəkdir. Bu göstəricilərə görə, ölkəmiz dünyada yüksək yerlərdən birini tutur. Eyni zamanda, Azərbaycanda ailələrin böyük əksəriyyətində internetə qoşulmuş kompüterlər və digər qurğular mövcuddur. Əhalinin mobil telefonlarla təminolma səviyyəsi isə 110%-dən çoxdur. Bu gün vətəndaşların böyük əksəriyyəti smartfonlardan istifadə edir. Bütün bunlar əhalinin maddi vəziyyətinin ilbəil yaxşılaşması ilə bağlıdır.

Üçüncüsü, vətəndaşlar İKT-dən səmərəli istifadə etmək üçün müvafiq bilik və bacarıqları, zəruri hallarda xarici dil biliklərinə malik olmalıdırlar. Bu gün ölkənin orta və ali təhsil sistemində İKT bilikləri tədris edilir. Bu sahədə biliklərin sürətlə yenilənməsi zərurəti ilə əlaqədar ən müxtəlif sahələrin mütəxəssislərini vaxtaşırı təkmilləşdirmə kurslarına cəlb edirlər. Vətəndaşların fərdi qaydada İKT biliklərini artırmaları üçün də ölkənin bütün bölgələrində əlyetərli olan ixtisaslaşmış tədris xidmətləri sektoru mövcuddur.

***- Rasim müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı” və “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə müəyyən edilən hədəflərdən irəli gələn hansı işlər həllini tapıb?***

- Qeyd etdiyiniz hər iki sənəd Azərbaycanda informasiya cəmiyyətinin inkişafı, biliklər iqtisadiyyatının formalaşması, bütövlükdə, ölkəmizin tərəqqisi baxımından, çox mühüm sənədlərdir. Bu sənədlər dünyada gedən proseslərə, tendensiyalara, müasir beynəlxalq çağırışlara, standartlara cavab verən mühüm inkişaf konsepsiyalarıdır. Hər iki sənəddə nəzərdə tutulan bir sıra tədbirlərin 2020-ci ilin sonunda yekunlaşması nəzərdə tutulur. Lakin indiyə qədər müvafiq tədbirlər planları çərçivəsində, artıq bir sıra mühüm işlər görülmüşdür. Qeyd edim ki, “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planında 15 məsələdə AMEA həmicraçı kimi fəaliyyət göstərir.

Milli Strategiyada əsas istiqamətlərdən biri də milli elektron kontentin inkişaf etdirilməsidir. Bu istiqamətdə də bizim institutun fəal iştirakı ilə bir sıra işlər yerinə yetirilmişdir. O cümlədən, qlobal informasiya məkanında Azərbaycanla əlaqədar məlumatların, həqiqətlərin təbliği və yayılmasının genişləndirilməsi sahəsində bir sıra işlər görülmüşdür. Həmçinin, İnformasiya Texnologiyaları İnstitutu tərəfindən “Azərbaycan alimləri diasporu” informasiya sistemi yaradılaraq, istifadəyə verilmişdir. Bütövlükdə, Dövlət Proqramı çərçivəsində həyata keçirilən bütün tədbirlərə İnformasiya Texnologiyaları İnstitutu tərəfindən elmi dəstək verilir.

“Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” çərçivəsində də bir sıra mühüm işlər yerinə yetirilmişdir. Müvafiq Tədbirlər Planının “Biznesin iştirakı ilə texnoloji tədrisin yenilənməsi” və “İKT sahəsində bilik və bacarıqların artırılması, təhsil sistemində İKT-dən istifadə” istiqamətləri üzrə yaradılan işçi qruplarının işində institutumuzun əməkdaşları yaxından iştirak etmiş və töhfələrini vermişlər.

***- Bu gün Azərbaycanın milli sərvəti olan elmi potensialın qorunması, inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən, ölkədə innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsal arasındakı əlaqələrin genişləndirilməsi, tətbiqi elmi araşdırmaların bazarın tələbatına uyğun aparılması üçün zəruri mexanizmlərin yaradılması istiqamətində hansı uğurlara nail olunub?***

- Bəli, dövlətimizin postneft dövrü üçün əsas hədəflərindən biri informasiya və biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılmasıdır. Biliklər iqtisadiyyatının əsasında artıq təbii resurslar deyil, insan faktoru dayanır. Yeni biliklər iqtisadiyyatı, ilk növbədə, keyfiyyətli, rəqabətədavamlı, innovativ düşüncəli insan resurslarının yetişdirilməsini tələb edir. Son vaxtlar ölkəmizdə həyata keçirilən təhsil islahatları, təhsil müəssisələrinin maddi-texniki bazasının modernləşdirilməsi, yeni ixtisasların açılması, həmçinin, istedadlı gənclərimizin seçilərək dünyanın qabaqcıl ali məktəblərinə təhsil almaq üçün göndərilmələri bu məqsədə xidmət edir. Əlbəttə ki, ölkəmizdə biliklər iqtisadiyyatının formalaşdırılmasında AMEA-nın da üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələrə uyğun olaraq, AMEA-da bir sıra mühüm işlər həyata keçirilir. O cümlədən, ölkəmizin inkişaf hədəfləri, innovativ iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, elmi fəaliyyətin prioritet istiqamətləri müəyyən edilmişdir. Elmin infrastrukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının müasirləşdirilməsi, İKT üzrə təminatının gücləndirilməsi, elektron elmin formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, ölkəmizdə innovativ biliklər iqtisadiyyatının formalaşdırılması məqsədi ilə, AMEA ilə dövlət qurumları, təhsil müəssisələri və biznes sektoru təmsilçiləri arasındakı əlaqələrin genişləndirilməsi üçün bir sıra birgə tədbirlər keçirilmiş, anlaşma memorandumları imzalanmışdır. Dövlət başçısının Sərəncamı ilə yaradılan AMEA Yüksək Texnologiyalar Parkının fəaliyyəti də Azərbaycanda biliklər iqtisadiyyatının formalaşmasına, innovativ təşəbbüslərin reallaşdırılmasına xidmət edir.

***- Rasim müəllim, “Elektron Bakı” proqramı ilə bağlı fikirlərinizi də bilmək maraqlı olardı.***

- Məlum olduğu kimi, artıq IV sənaye inqilabının imkanlarından bütün sahələrdə geniş istifadə olunmağa başlanılmışdır. O cümlədən, elektron şəhərlərin formalaşdırılması texnologiyaları və materialları elektron şəhər layihələrində, şəhərsalmada, inşaat sahəsində geniş tətbiq olunur, beynəlxalq sərgilərdə tikinti materialları, memarlıq nümunələrinin üçölçülü çapı, smart-binaların, şəhərlərin kompüter modelləşdirilməsi ilə bağlı məhsullar nümayiş etdirilir. Qeyd etmək lazımdır ki, “Elektron Azərbaycan”ın qarşısında duran vəzifələr, bu istiqamətdə qəbul olunan dövlət proqramları uğurla həyata keçirilir. Artıq növbəti mərhələdə IV sənaye inqilabının səbəbkarı olan kiberfiziki sistemlər əsasında yeni, innovativ infrastruktur layihələrinin icra edilməsinə böyük tələbat və əlverişli şərait yaranmışdır. O cümlədən, “Elektron Azərbaycan”ın mühüm tərkib hissəsi olan “Elektron Bakı” proqramının işlənilməsinin və həyata keçirilməsinin vaxtı çatmışdır. Ümumiyyətlə, paytaxtımızın, eləcə də, Azərbaycanın digər şəhərlərinin elektron şəhərlərə çevrilməsi, ölkədə binaların və digər obyektlərin vahid şəbəkəyə qoşulması üçün müvafiq sahədə fəaliyyət göstərən alim və mütəxəssislər birgə fəaliyyət göstərməlidirlər.

“Elektron Bakı”nın formalaşdırılması üçün IV sənaye inqilabının imkanlarından səmərəli istifadə edilməlidir. Şəhərdəki müxtəlif infrastrukturlar haqqında sensorlar şəbəkəsi vasitəsi ilə toplanan məlumatların intellektual emalı və optimal idarəetmə qərarlarının qəbulunda Big-data analitikası texnologiyalarının imkanlarından bəhrələnmək məqsədəuyğundur. “Elektron Bakı” layihəsinin uğurla reallaşdırılması nəticəsində, şəhər təsərrüfatının idarə olunmasında resurslara qənaət edilə, insanların həyat şəraiti daha da yaxşılaşa, ətraf mühitə zərərli təsirlər minimallaşdırıla bilər. Belə bir innovativ, texnoloji mühitdə, həmçinin, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına və eyni zamanda, qiymətlərinin aşağı salınmasına, cinayətkarlıq hallarının minimuma endirilməsinə, daha rahat alış-veriş imkanlarının təmin edilməsinə və yollardakı tıxacları aradan qaldırmağa nail olmaq olar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bəşəriyyətə qarşı qanlı cinayət - Xocalı soyqırımı

## "Səs" qəzetində Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı bu mövzuda dəyirmi masa keçirildi

***"Səs" qəzeti ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil edir. Növbəti dəyirmi masa "Bəşəriyyətə qarşı qanlı cinayət - Xocalı soyqırımı" mövzusunda keçirildi. Azərbaycan xalqının ən böyük faciələrindən biri olan Xocalı soyqırımının 27-cü ildönümünə həsr olunmuş dəyirmi masada Xocalı rayon icra hakimiyyəti başçısının müavini Vahid Əliyev, Xocalı rayon icra hakimiyyətinin əməkdaşı Xəlil Vəliyev, Bakı Slavyan Universitetinin dosenti, DQMV-nin sabiq rəis müavini, istefada olan polkovnik Sadir Məmmədov, Xocalı sakini, müharibə veteranı, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, tədqiqatçı- jurnalist Səriyyə Cəfərova, AHB sədri Təhmasib Novruzov, Xocalı batalyonun döyüşçüsü Murad Məhərrəmov, Xocalı sakinləri Mehriban Əliyeva, Səadət Zeynalova, Valeh Hüseynov iştirak edirdilər.***



Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin şöbə müdiri İlham Əliyev Xocalı soyqırımının baş verdiyi tarixi dövrə nəzər saldı. O bildirdi ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ ərazisindəki keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və hərbi texnikasının, bilavasitə iştirakı ilə Xocalı şəhərini zəbt edərək, xalqımıza qarşı analoqu olmayan soyqırımı aktı həyata keçirib: "Ermənilərin həyata keçirdikləri soyqırımı zamanı Xocalı şəhəri tamamilə dağıdılıb, 63 uşaq, 106 qadın və 70 qocanı xüsusi amansızlıqla, işgəncələrlə qətlə yetirib, 8 ailəni tamamilə məhv ediblər. 114 nəfər itkin düşüb, 487 nəfər isə əlil olub".

"Səs" qəzetinin əməkdaşı, onu da vurğuladı ki, bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilir. Xocalı soyqırımı tarixdən bizə məlum olan Babiyar, Xatın, Liditse, Srebrinitsa soyqırımı faciələri ilə eyni səviyyədə durur.

"SƏS" QƏZETİNİN ƏMƏKDAŞI:

- Vahid müəllim, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə vəhşiləşmiş erməni hərbçiləri bəşəriyyətə qarşı ən dəhşətli cinayəti - Xocalı soyqırımını törətdilər. İstərdik ki, o dövrün hadisələrini və baş vermiş tarixi cinayətlə bağlı fikirlərinizi deyəsiniz.

### DÖRD TƏRƏFDƏN ERMƏNİ TERRORÇU DƏSTƏLƏRİ TƏRƏFİNDƏN ƏHATƏ OLUNAN ŞƏHƏR ARTİLLERİYA VƏ AĞIR HƏRBİ TEXNİKADAN GÜCLÜ VƏ FASİLƏSİZ ATƏŞƏ TUTULDU

VAHİD ƏLİYEV:

- Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 27 il ötür. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. Xocalı soyqırımı - XX əsrin silinməz ləkəsidir. Hadisələri ardıcıllıqla izləsək, başımıza gətirilən olaylar, tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edir. Biz anlamalıyıq ki, ermənilər tarixən təkcə bizlərə qarşı deyil, bütün türk dünyasına qarşı torpaq iddiaları ilə çıxış etmiş və indi də etməkdədirlər. Ötən əsrin son illərində isə başlanan hadisələr zamanı ermənilər Azərbaycana qarşı ərazi iddiası ilə çıxış edərək, torpaqlarımızın 20 faizini işğal ediblər. Belə ki, ermənilər tərəfindən dünya ictimaiyyətinin gözü qarşısında Azərbaycanın tarixi torpaqları olan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı kimi məkanlar işğal olundu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Rusiyanın Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər. Dörd tərəfdən erməni terrorçu dəstələri tərəfindən əhatə olunan şəhər artilleriya və ağır hərbi texnikadan güclü və fasiləsiz atəşə tutuldu. Az bir vaxt ərzində, şəhərdə böyük miqyaslı yanğınlar baş verdi, şəhər tamamilə alova büründü. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə yeksan edildi.

Qeyd edim ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda baş verən ictimai-siyasi proseslərə həm hüquqi, həm də siyasi qiymət verildi. Bu gün Azərbaycan diplomatiyası soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində intensiv işlər aparır. Bildiyimiz kimi, Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Ümummilli Lider Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin səyi ilə Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması istiqamətində tədbirlər həyata keçirilir.

Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörən siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu diplomatiyası sayəsində dünyanın bir sıra ölkələrində Xocalı soyqırımından bəhs edən tədbirlər keçirilir və abidələr ucaldılır. Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Qarabağda, Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Bu gün Xocalı soyqırımının tanınması Azərbaycan xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanınması barədə qərar qəbul edilib. Vaxt gələcək, ermənilər günahsız Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərə görə tarixin ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Bu gün Azərbaycanın güclü ordusu var və bu ordu işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir.

### AZƏRBAYCANLILARA QARŞI YERİDİLƏN SOYQIRIMI SİYASƏTİNİN TARİXİ ƏSRLƏRİ ƏHATƏ EDİR

SADİR MƏMMƏDOV:

- Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində, ardıcıl olaraq, hərbi- ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Hadisələri ardıcıllıqla izləsək, Azərbaycanın başına gətirilən olaylar, tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edib. Artıq dərk edirik ki, ermənilər tarixən təkcə bizlərə qarşı deyil, bütün türk dünyasına torpaq iddiaları ilə çıxış ediblər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə,

# Bəşəriyyətə qarşı qanlı cinayət - Xocalı soyqırımı

*“Səs” qəzetində Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı bu mövzuda dəyirmi masa keçirildi*





insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır.

Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə olunmasıdır. Rəhbərlik bir balaca işarə versəydi, Xocalıda bu soyqırımı baş verməzdi.

Bu gün Azərbaycan dövləti və hökuməti, digər qeyri-hökumət təşkilatları, diaspor qurumları Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə daha geniş coğrafiyada çatdırılması, onun soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atır. İnformasiya müharibəsinin geniş yayıldığı müasir dövrdə Xocalı soyqırımı haqqında bütün faktlar dünya dövlətlərinə çatdırılmalıdır. Bakı Slavyan Universiteti tərəfindən mənim müəllifi olduğum və dünyanın 12 dilində çap edilən “Xocalı Soyqırımı” kitabında həqiqətlər öz əksini tapıb.

### XOCALI FACİƏSİ ÖZ AĞIRLIĞINA, VƏHŞİLİYİNƏ VƏ AMANSIZLIĞINA GÖRƏ BƏŞƏRİYYƏTƏ QARŞI TÖRƏDİLMİŞ CİNAYƏTLƏR SIRASINDA XÜSUSİ YER TUTUR

VALEH HÜSEYNOV:

- 1992-ci il fevralın 26-da baş verən Xocalı soyqırımı xalqımızın taleyində ən ağır və acılı anlarından biri kimi yaşandı. Erməni vəhşiliyi haqqında əvvəllər də eşitmişdim, lakin əsirlikdə bunun əyani şahidi oldum. Xocalı faciəsi haqqında günlərlə, aylarla danışa bilərəm. Orada olan hər bir epizod mənim yaddaşımdadır. Bu soyqırımı ermənilərin təkcə azərbaycanlılara deyil, insanlığa qarşı cinayətidir. Topların, tankların, raketlərin qarşısında biz əliyalın idik. İnsanların bir hissəsi Xocalının küçələrində qırıldı, sağ qalanlar meşəyə qaçdılar. Səhərədək yol getdik. Həmin gecə mən də əsir düşdüm.

Yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar və bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə, bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur. Qeyd edim ki, o ərəfədəki vəziyyət birdən-birə yaranmayıb. Bu münaqişə ilə bağlı ermənilərin apardıqları hazırlığın nəticəsi idi. Hadisələr 1988-ci ildən başlandı. Xocalının coğrafi mövqeyi elə idi ki, bu rayona gəlmək üçün ermənilər yaşayan iki-üç məntəqədən keçmək lazım idi. Yəni Xocalı, bütünlükdə, erməni yaşayış məntəqələrinin mühasirəsində idi. Belə ki, 5 kilometr məsafədən şərqdə Əsgəran idi, yuxarıda - 10 km məsafədə Xankəndi və ətrafda 20-dən çox erməni yaşayış məntəqələri yerləşirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi baş verdi.

Xocalıya hücuma gələn xüsusi təlimatlanmış və silahlanmış canlı qüvvənin qarşısında Xocalı müdafiəçilərinin əlində bir əl pulemyotu, ov tüfəngləri, bir neçə avtomat silahı var idi. Təsəvvür edin, böyük, hər cür silah-sursatla təchiz olunmuş alayın qarşısına qəhrəman xocalılar hansı silahlarla çıxmışdılar. Xocalılar, sadəcə olaraq, vətəndaşlıq şücaəti göstərdilər. Son ana qədər vətəni tərk etməyiblər. Vətəni qoyub çıxmaq xocalılıların heysiyyatına toxunurdu. Xocalı faciəsi zamanı şəhid olanların əksəriyyəti dinc əhali oldu. Yəni qocalar, uşaqlar və qadınlar.

Fikrimcə, o dövrdəki rəhbərliyin qətiyyətsizliyi və prinsipial mövqe göstərməməsi vəziyyətin bu qədər gərginləşməsinə səbəb oldu. Lakin elə etmək olardı ki, Xocalı işğal olunsa da, mülki əhalinin qırğını olmasın. O vaxtkı Azərbaycan rəhbərliyinin prezident kürsüsü iddiasında olması çox faciələrə gətirib çıxardı.

Qanlı qırğından sağ qalan əhali dağlara, meşələrə qaçdı. Dinc əhalini təqib edən silahlı ermənilər onları güllələyir, ələ keçənlərə amansız işgəncələrlə divan tuturdular. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Ermənilərin törətdikləri əməllərin ən dəhşətlisi Xocalı soyqırımı oldu. Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirirdilər.

İnsanlara olmazın işgəncələr verirdilər. Uşaqları gözümüz önündə bir-bir güllələyirdilər. Mənim özümü bir neçə dəfə öldürmək istədilər. Məni bir dərənin içinə aparıb atdılar və bir gündən sonra gəlib gördülər ki, sağam. Dürdanə Ağayeva adlı Xocalı sakini şahiddir ki, onlar mənim üzümü necə yandırdılar. Dırnaqları dartıb çıxarırdılar. Bunu aylar-illər lazımdır danışasan. Onu demək istəyirəm ki, erməni tək Xocalıya yox, bütün insanlığa qarşı vəhşilik törətdi.

Erməni şovinist millətçilərinin həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükə yaratması diqqətə çatdırılmalıdır.

Əlbəttə ki, bu gün ən mühüm vəzifələrdən biri Xocalı soyqırımı və bütövlükdə, ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. Bu gün Azərbaycan rəhbərliyinin həyata keçirdiyi fəaliyyətin ən mühüm istiqamətlərindən biri ermənilərin dünyada ifşasıdır.

(Ardı var)

**ZÜMRÜD BAYRAMOVA**

## Azərbaycan MDB-də ekskursiya turizminin üç ən yaxşı istiqamətindən biridir



Azərbaycan MDB məkanında ekskursiya turizminin üç ən yaxşı istiqamətindən biri sayılıb. AZƏRTAC xəbər verir ki, “TurStat” analitika agentliyi Rusiya turistlərinin ekskursiya turları, istirahəti və səyahətləri üçün MDB ölkələrinin ən yaxşı ekskursiya istiqamətlərinin reytinqini tərtib edib.

Ekskursiya turizmi bələdçilərin müşayiəti ilə mədəni-maarifləndirici turları və ekskursiyaları nəzərdə tutur. “TurStat”ın məlumatına görə, MDB ölkələrində ekskursiya turizmi bir il ərzində 3 milyondan çox ekskursiya səfərini və turunu əhatə edir. MDB-də ekskursiya istirahəti üçün üç ən yaxşı istiqamət Belarus, Qazaxıstan və Azərbaycandır. Reytinq ekskursiya turları və internet-sorğu bazarının tədqiqi nəticəsində əldə olunan məlumat əsasında tərtib edilib. “TurStat”ın məlumatına görə, MDB ölkələrinə 7 günlük ekskursiya turu, orta hesabla, 500-1000 dollara başa gəlir.

## Komitə rəsmisi: FHN-də çoxmənzilli binaların sayı bir daha dəqiqləşdirilərək müayinəsi aparılacaq



“Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” Azərbaycan Prezidentinin Fərmanına əsasən, bu il yanvarın 1-nə tikintisi tamamlanmış çoxmənzilli yaşayış binalarının (əgər istismar olunursa) istismara verilməsi prosesinin sadələşdirilməsi nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri Anar Quliyev deyib. Komitə rəsmisi bildirib ki, bunun üçün Fərmanda çox dəqiq mərhələlər qeyd olunub və bu işlə məşğul olacaq dövlət orqanları müəyyənləşdirilərək, hər birinə konkret tapşırıqlar verilib: “Belə ki, 2 ay ərzində Fövqəladə Hallar Nazirliyində (FHN) çoxmənzilli binaların sayı bir daha dəqiqləşdirilərək hər birinin müayinəsi aparılacaq və onların dayanıqlılığı, texniki təhlükəsizliyi və istismara hazır olması barədə rəy veriləcək. Rəy verildiyi gündən tikintiyə icazə verən orqana, yəni Bakı şəhərində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, digər şəhərlərdə isə aidiyyəti icraedici orqana ötürüləcək və 7 gün ərzində istismara icazənin verilməsi təmin olunacaq”.

# KİV rəhbərləri DMX-nin fəaliyyəti ilə yaxından tanış olublar

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri fevralın 21-də Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəhbərliyi ilə görüşüb, Xidmətin fəaliyyəti ilə yaxından tanış olublar. Tədbirdə Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Fondun icraçı direktoru Vüqar Səfərli, Xidmətin məsul vəzifəli şəxsləri, eləcə də 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər.***



Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov qonaqları səmimi salamlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı ilə Xidmətin fəaliyyətinin müasirləşdirilməsi və müasir dövrün çağırışlarına uyğunlaşdırılması istiqamətində gerçəkləşdirilən kompleks tədbirlər barədə məlumat verib. V.Hüseynov bildirib ki, Xidmət üzərinə düşən vəzifələri qanunçuluq, humanizm, şəffaflıq prinsipləri əsasında həyata keçirərək insan və vətəndaş məmnunluğunun təmin olunmasını əsas hədəflər kimi müəyyənləşdirib.

V.Hüseynov bildirib ki, Xidmətin fəaliyyətinin prioritet istiqamətlərinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə olduğu yer üzrə qeydiyyatı, miqrasiya qaydalarına əməl etmələrinə nəzarətin həyata keçirilməsi, vətəndaşlığa qəbul, bərpa və xitam verilməsi, müvəqqəti və daimi yaşama icazələrinin, iş icazələrinin verilməsi, vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyən edilməsi, qanunsuz miqrasiyaya qarşı səmərəli mübarizənin, habelə miqrasiya uçotunun təşkili, readmissiya məsələlərinin həlli və miqrasiya qanunvericiliyinin şərhi məqsədilə maarifləndirmə işinin aparılması və digər məsələlər aiddir.

Xidmət rəisi həmçinin vurğulayıb ki, miqrasiya proseslərinin daha çevik və mütərəqqi iş metodları əsasında tənzimlənməsi məqsədilə bu sahə üzrə qanunvericiliyin təkmilləşdirilməsi xüsusi diqqət mərkəzindədir. Məqsəd ölkəmizə gələn əcnəbilərin qeydiyyatı və yaşaması ilə bağlı məmnunluğunun təmin edilməsi, turizm baxımından cəlbediciliyin artması və sahibkarlığın inkişafının dəstəklənməsidir.

V.Hüseynovun sözlərinə əsasən, aparılan islahatlar nəticəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda olduğu yer üzrə qeydiyyatının müddəti 10 gündən 15 günədək uzadılıb. Xidmət rəisi qeyd edib ki, miqrasiya qanunvericiliyini pozduğuna görə haqqında inzibati cərimə növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş əcnəbilər artıq cəriməni ödəmədiyi təqdirdə ölkə ərazisini barələrində ölkəyə təkrar girişlərinə hər hansı məhdudiyyət tətbiq edilmədən tərk edə bilir: "İnzibati qaydada ölkədən kənara çıxarılma halları istisna olmaqla, cəriməni ödədikdən sonra isə onların ölkəyə sərbəst gəlmələri təmin edilib. Miqrasiya Məcəlləsində əcnəbilər tərəfindən son üç ildə iki dəfə miqrasiya qanunvericiliyi əleyhinə olan inzibati xəta törədildikdə onların ölkəyə girişlərinə 5 il qadağa qoyulmasını nəzərdə tutan müddəa da ləğv olunub. Daimi yaşama icazəsinin alınmasına imtina verilmiş əcnəbilərin sadəcə ərizə ilə (digər əlavə sənədləri təqdim etmədən) müvəqqəti yaşama icazəsi almaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edə bilirlər".

Çıxışını davam etdirən V.Hüseynov bildirib ki, ölkədəolma, yaşama, yaxud ölkə ərazisindən tranzitləkeçmə qaydalarının pozulmasına görə inzibati məsuliyyətə cəlb olunmuş əcnəbilərə inzibati məsuliyyətə cəlb olunmalarına səbəb olmuş halın aradan qaldırılması üçün 10 gün vaxt verilir: "Vizası və ya müvəqqətiolma müddətinin uzadılması barədə qərarı, yaxud müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi ləğv edildikdə barəsində kənaraçıxarma haqqında qərar qəbul edilmiş əcnəbilər müvafiq sənədlərin ləğv edilməsinə səbəb olmuş əsaslar aradan qalxdıqda məhdudiyyət müddətinin bitməsini gözləmədən ölkəyə sərbəst gələ bilərlər".

V.Hüseynov 2018-ci ilin dekabr ayında Dövlət Miqrasiya Xidmətinin "MİGAZ" mobil tətbiqinin istifadəyə verilməsini də mühüm yeniliklərdən biri kimi dəyərləndirib. Xidmət rəisi bildirib ki, Azərbaycan, ingilis və rus dillərində hazırlanmış mobil tətbiq üzərindən birbaşa əlaqə vasitəsilə zəng və sorğuların cavablandırılmasını da həyata keçirmək mümkündür: "Yaxın gələcəkdə dil seçimi menyusu zənginləşdiriləcək. Yüksək interaktivliyi ilə seçilən mobil tətbiq vasitəsilə istifadəçilərə istər qeydiyyat, istərsə də digər elektron xidmətlərlə bağlı mütəmadi yeniliklər, bildirişlər göndəriləcək. Tətbiqin istifadəsi əcnəbi vətəndaşların olduğu yer üzrə qeydiyyatına; müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınmasına; məhdudiyyətin və müraciət statusunun yoxlanmasına; onlaynödəmə və növbəyədurmaya; "ASAN Viza" və xidmətin digər istiqamətləri üzrə servis xidmətlərinə mobil tətbiq üzərindən çıxış əldə etməyə imkan verir".

V.Hüseynov qeyd edib ki, hazırda əcnəbilərin ölkəmizdə ən çox istifadə etdiyi xidmətlərindən biri olduğu yer üzrə qeydiyyatdır: "Onlar ölkəmizdə 15 gündən artıq müddətdə qaldıqda ünvan qeydiyyatı aparılmalıdır. Bundan sonra əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mobil tətbiq vasitəsilə elektron xidmətlərdən mobil telefonla onlayn qaydada daha asan şəkildə istifadə edə və təxminən beş dəqiqədə bu qeydiyyatı həyata keçirə bilərlər".

Xidmət rəisi həmçinin vurğulayıb ki, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, onların hüquqlarının müdafiəsi xüsusi diqqət mərkəzindədir. V.Hüseynov bu məqsədlə Dövlət Miqrasiya Xidməti yanında Appelyasiya Şurasının, eləcə də işəgötürənlərə zəruri məlumatların çatdırılması, miqrasiya sahəsində qanunvericiliyin sahibkarlığa təsirinin qiymətləndirilməsi, əcnəbi işçi qüvvəsinə tələbatın təmin edilməsi zamanı yaranan çətinliklərin və sahibkarları narahat edən məsələlərin həlli məqsədilə Xidmət yanında Məşvərət Şurasının yaradıldığını diqqətə çatdırıb.

Qısa müddətdə həyata keçirilən islahatların uğurlu nəticələr verdiyini deyən V.Hüseynov əlavə edib ki, 2017-2018-ci illərdə "ASAN xidmət indeksi" üzrə mərkəzi icra hakimiyyəti orqanları sırasında ən yüksək nəticəni 68,98 faizlə Dövlət Miqrasiya Xidməti göstərib.

Xidmət rəisi DMX-nın fəaliyyətində səmərəliliyin daha da yüksəldilməsi üçün maarifləndirmə və məlumatlandırma işinin təşkilinə də xüsusi əhəmiyyət verildiyini diqqətə çatdırıb. Bildirib ki, bu məqsədlə sosial şəbəkələrin imkanlarından istifadəyə xüsusi önəm verilir, Xidmətin rəsmi "Tvitter", "Facebook" səhifələri, "Youtube" kanalı fəaliyyət göstərir.

Sonra çıxış edən Fondun icraçı direktoru Vüqar Səfərli görüşün təşkilində göstərdiyi dəstəyə görə Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirib və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından belə tədbirlərin əhəmiyyətindən söz açıb.

Vüqar Səfərli ölkə rəhbərliyinin mediaya yüksək diqqət və qayğısının nəticəsi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edildiyini bildirib. İcraçı direktor Konsepsiyadan irəli gələn vəzifələrin reallaşdırılması üçün dövlətimizin başçısının 3 aprel 2009-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını bildirib. Vüqar Səfərli Fondun yaradılmasının xüsusən də çap mediasının üzləşdiyi problemlərin həlli baxımından əhəmiyyətini diqqətə çatdırıb.

İcraçı direktor Fondun fəaliyyət göstərdiyi 10 il müddətində qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı çoxsaylı layihələr barədə məlumat verib. V.Səfərli Fondun maliyyə dəstəyi ilə hazırda qəzetlərə maliyyə dəstəyinin göstərildiyini, habelə jurnalistlər üçün müntəzəm olaraq fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu bildirib. Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə reallaşdırılan layihələr barədə məlumat verən V.Səfərli Fondun təşkilatçılığı ilə aparıcı media qurumlarının nümayəndələrinin müxtəlif ölkələrə işgüzar səfərlərinin təşkil olunduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı ilə dövlət büdcəsi hesabına jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açan V.Səfərli bunu dünyada analoqu olmayan sosial layihə kimi dəyərləndirib. İcraçı direktor dövlətimizin başçısının müvafiq sərəncamları əsasında indiyədək iki binanın yüksək səviyyədə inşa edilərək istifadəyə verildiyini, 411 nəfər jurnalistin mənzillə təmin olunduğunu bildirib. V.Səfərli hazırda üçüncü binanın inşasının sürətlə davam etdirildiyini və 2020-ci ilin iyulunda jurnalistlərin istifadəsinə veriləcəyini diqqətə çatdırıb.

İcraçı direktor mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin təşkilinin Fondun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. V.Səfərli bildirib ki, Dövlət Miqrasiya Xidmətində təşkil olunmuş görüş KİV-lə bu Xidmət arasında əməkdaşlığın dərinləşdirilməsi, habelə ictimaiyyətin bu sahədə görülmüş işlər barədə dolğun məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, "Mövqe" qəzetinin baş redaktoru Rasim Bayramov Dövlət Miqrasiya Xidmətinin fəaliyyətində son aylarda qabarıq hiss olunan yenilikləri təqdir edərək Xidmətin yeni rəhbərinin müasir çağırışlara cavab verən islahatlarını razılıqla vurğulayıblar. Çıxış edənlər Xidmətin tətbiq etdiyi yeniliklərin ölkəmizin beynəlxalq imicinin yüksəldilməsi, turizm cəlbediciliyinin yüksəldilməsi və ümumən milli təhlükəsizliyinin qorunması baxımından əhəmiyyətindən söz açıblar.

Xidmət rəisi V.Hüseynov daha sonra KİV rəhbərlərini maraqlandıran sualları ətraflı cavablandırıb. Fondun icraçı direktoru V.Səfərli sonda media ilə səmərəli əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəyə görə Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirib, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Xidmətin rəisi V.Hüseynov öz növbəsində Xidmətin fəaliyyətinin media üçün daim açıq olduğunu vurğulayaraq kütləvi informasiya vasitələri ilə əməkdaşlığın vacibliyini qeyd edib, habelə görüşün təşkilinə görə Fondun rəhbərliyinə və KİV rəhbərlərinə təşəkkürünü bildirib. Sonda tədbir iştirakçıları Xidmətin Heydər Əliyev Muzeyi ilə tanış olub, xatirə şəkili çəkdiriblər. Xidmətin 24 saat fəaliyyət göstərən Çağrı mərkəzi və Qəbul şöbəsinin işi ilə yaxından tanışlıq da qonaqlarda xoş təəssüratlar yaradıb.



# “Arxalı köpək qurd basar”

## *Paşinyan Sarkisyan yolu ilə gedir*

***Sosial problemlərin məngənəsində boğulan Ermənistanda etiraz aksiyaları səngimir. Fevralın 6-dan başlanan aksiyalar davam etməkdədir. Əgər Sarkisyanın istefa ərəfəsi günlərini xatırlasaq, görərik ki, eyni ilə həmin hadisələr Nikol Paşinyan hakimiyyətində də baş verməkdədir. Əgər oturaq aksiya keçirən insanlar “Talana, yalana son qoy, Sarkisyan!” şüarı ilə çıxış edirdilərsə, indi də Payinyana “Küçə demokratı, yalan vədlərə son qoy!” şüarını səsləndirirlər.***

Hətta küçə alverinə imkan verməyən Paşinyana etirazını bildirən 80 yaşlı qadın “Dağılsın bu dövlət!”, “Rədd olsun bu hakimiyyət” şüarı ilə çıxış edib. Etirazçılar bildirirlər ki, uzun zamandan bəri Ermənistanda davam edən aclıq, səfalət, insanlara qarşı təzyiq bu gün Nikolun hakimiyyəti dövründə son həddə çatıb.

Erməni mətbuatının yazdığına görə, ölkədə yaranmış ağır durumla bağlı erməni ekspertləri bildirirlər ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: “Paşinyan min-bir hiylə ilə hördüyü corabın toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait, ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır”.

### Ermənistanda kasıblıq həddi 52 faizi keçib

Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə, ölkə əhalisinin yarıdan çoxu kasıblıq həddində yaşayır: “2008-ci ildə kasıblıq həddi 27,6 faiz olub, bu gün isə, bu göstərici, artıq 52 faizi keçib. 2014-cü ildə Ermənistanın 5 min 242 vətəndaşı 44 ölkədən siyasi sığınacaq istəyib. Son iki ildə isə, Ermənistandan siyasi sığınacaq üçün 10 min vətəndaş müraciət edib. Siyasi miqrasiya ilə yanaşı, Ermənistandan iqtisadi mühacirət də artıb. Son dönəmlərdə Ermənistandan mühacirət 4 min nəfər artaraq, 47 minə çatıb. Bunun nəticəsidir ki, Ermənistanda bölgələrdə yaşayan əhalinin sayı sürətlə azalan istiqamətdə inkişaf edir. Dramın qiymətdən düşməsi ölkədə bahalaşma prosesini sürətləndirib. Bu gün işğalçı Ermənistanda vəziyyət çox acınacaqlıdır. İqtisadiyyat böhran içərisindədir. Xaricdən axan külli miqdarda yardımlar isə, əvvəlki səviyyədə olmadığından əhalinin sosial durumu daha da ağırlaşıb. İstehsalat dayanıb, sənaye müəssisələri işləmir. Əmək haqları verilmir. Ermənistan əhalisi yoxsulluqdan kütləvi şəkildə ölkəni tərk edir. İşğalçı ölkədə ticarət dövriyəsinin azalması problemləri daha da dərinləşdirir. Ermənistan, artıq hər ayı iqtisadi geriləmə ilə başa vurur. Son dövrlərdə ölkədə xarici ticarət dövriyyəsi 222,5 milyon dollara bərabər olub. Bu isə, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 51 faiz azdır”.

### Borc bataqlığı...

Bu gün, Ermənistanın xaricdən iqtisadi asılılığı birə-on qat artıb. Xarici borc isə, həddən artıq çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Ümumiyyətlə, Ermənistan formal müstəqilliyini əldə etdikdən indiyə qədər iqtisadi problemlərini həll edə bilməyib. Əvvəllər Rusiya və digər ölkələrin hesabına yaşayan Ermənistan indinin özündə də, xaricdən asılı vəziyyətdədir. Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə, Ermənistanın daha böyük səfalətə sürüklənəcəyi şəksizdir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır. Ölkənin istehsalı, əsasən, dağ-mədən və kimya sənayesi çərçivəsində olub ki, hazırda burada da ciddi tənəzzül hökm sürür. Bu sahələr, əsasən, Rusiya, İran şirkətlərinin nəzarətindədir və böyük əksəriyyətinin fəaliyyəti dayanıb. Real vəziyyət də nümayiş etdirir ki, ölkə iqtisadiyyatını böhrana sürükləyən Paşinyan heç də Serj Sarkisyan iqtidarından geri qalmır. Təkcə son iki ayda hökumət müxtəlif maliyyə qurumlarından üst-üstə 450 milyon dollardan çox kredit alıb. Bununla da, Ermənistanın ümumi xarici kredit borcu, artıq 6 milyard dollara çatıb. “Aykakan Jamanak” qəzeti yazır ki, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, Paşinyan hökumətinin yalan vədlərinin boş və mənasız olduğunu, artıq anlayır və sadəcə, xalqı aldatdığını aydın görürlər.

### Paşinyan erməni lobbisinin əlində oyuncaqdır

Artıq erməni ekspertləri aydın şəkildə bildirirlər ki, nə qədər ki, Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi-siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasada, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin və erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

Siyasi İnnovasiya Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu N.Paşinyanın ağıllı, savadlı, dərin düşüncəli rəhbər olmadığını erməni xalqı elə ilk gündən görüb: “Fikir vermisinizsə, “Exo Moskvı” televiziyasına verdiyi müsahibəsində Paşinyan deyir ki, mən oğlumu Dağlıq Qarabağa sülh məqsədi ilə göndərmişəm, çünki orada müharibə getmir. Amma müsahibənin digər bölümündə bildirir ki, əgər mənim oğlum ordadırsa və öz ölkəmi, xalqımı qorumaqdan ötrü heç nəyimi əsirgəmiyəcəm. Bilirsiniz N.Paşinyanın fikirləri bir-birinə ziddiyyət təşkil edir. Birincisi, oğlunu Dağlıq Qarabağa göndərməklə dərin düşüncəli yox, əksinə, dayaz düşüncəli adam olduğunu sübut edib. İkincisi, onun oğlunun hərbi xidmət yaşı Ermənistan qanunlarına görə 4-5 il bundan qabaq keçib. Onun oğlu Baltikyanı dövlətlərin birində, elədə nufuzu olmayan bir ali məktəbə daxil oldu və orada təhsil aldı. Ermənistan qanunlarına görə 18 yaşı tamam olan gənclər ali məktəblərə qəbul olunmurlar, hərbi xidmətə getməlidirlər. Yalnız istedadlı gənclərə hərbidən möhlət verilir ki, onlar nüfuzlu ali məktəblərə daxil olsunlar. Amma N.Paşinyanın oğlunun elə bir istedadı yoxdur. O vaxtlar demaqoq deputatlardan idi ki, həyasızlıq edib, oğlunu hərbi xidmətə getməyə qoymadı. İndi baş nazir olaraq, oğlunu hərbi xidmətə göndərməklə, populistlik edir”.

Bir sözlə, Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini qeyd edirlər. Sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya, bürokratik əngəllər bu gün də davam etməkdədir. Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra Serj Sarkisyanın tərəfdarlarını vəzifələrdən çıxarmala və ya bir qismini həbsə atdırmaqla bir növ işini bitmiş hesab edir.

Ermənistan geridə qalmış ölkə kimi, hər zaman Rusiyanın köməyi hesabına yaşayan bir ölkədir. İndi isə Nikol Paşinyanın Avropa dairələrinin köməyinə güvənərək, yardım istəməsi də ölkənin iflas kökündə olduğu aydın şəkildə görmək mümkündü. Bədbəxt N.Paşinyan, Brüssel görüşündən əliboş qayıtdıqdan sonra və ölkəni bu kritik vəziyyətdən necə çıxacağı haqqında hələ çox düşünəcək. Lakin dəfələrlə qonşu ölkələr rəsmi surətdə Ermənistana bəyan etmişdir ki, Azərbaycanın torpaqlarını sülh yolu ilə qaytar və əvəzində, Azərbaycan və Türkiyə ilə iqdisadi əlaqələr qurmaqla, ölkənizi iqdisadi çətinliklərdən qurtara bilərsiniz. Ancaq N.Paşinyanın S.Sarkisyanın yolunu tutub getməsi erməni xalqını daha da iflas vəziyyətinə salır.

**A.SƏMƏDOVA**

## Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının ildönümünə dair bəyanat qəbul edib



Estoniya parlamentinin - Riyqikoqunun Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupu Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı bəyanat qəbul edib. AZƏRTAC xəbər verir ki, qrupun üzvləri Azərbaycan xalqına Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı dərin hüznlə başsağlığı veriblər. Bəyanatda bildirilir ki, Azərbaycan xalqı Xocalı soyqırımında 600-dən çox günahsız vətəndaşını itirib. Onların arasında çoxsaylı uşaq, qadın və yaşlı insan olub və biz bu acını bölüşürük. Biz dinc Azərbaycan xalqına qarşı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş insanlığa zidd bu vəhşiliyin günahkarlarını qətiyyətlə pisləyirik. Bu vəhşilik aktının günahkarları mütləq cəzalarını amalıdırlar.

Biz ərazi bütövlüyünü bərpa etməsi üçün Azərbaycan Respublikasının səylərinə dəstək ifadə edirik. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli bütün regionun inkişafı üçün vacib amildir.

## Ötən ay Naxçıvanda əsas kapitala yönəldilmiş vəsaitin 92 faizi tikinti-quraşdırma işlərinə sərf olunub

Ötən aya muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 36 milyon 661 min manat vəsait yönəldilib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, əsas kapitala yönəldilmiş vəsaitin 33 milyon 718 min manatı və ya 92 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

## “Bakı şəhərinin Baş planının hazırlanması üçün texniki işlərə başlanılacaq”



Bakı şəhərinin Baş planının hazırlanması üçün texniki işlərə başlanılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri Anar Quliyev deyib.

“Baş planın hazırlanması ilə bağlı tender elan olunub. Bir neçə gün əvvəl tender üzrə təqdim olunmuş təkliflərin qəbulu başa çatıb. Bu məsələyə dünyanın müxtəlif ölkələrini təmsil edən nüfuzlu şirkətlər böyük maraq göstərib. Yaxın müddətdə təkliflərə baxılacaq. Növbəti bir neçə həftə ərzində qalib müəyyən ediləcək. Daha sonra Baş planın hazırlanması üçün texniki işlərə başlanılacaq. Bu, kifayət qədər uzun müddət tələb edən prosesdir”, - deyə aparat rəhbəri vurğulayıb.

## “DOST” mərkəzləri bütün ölkədə fəaliyyət göstərəcək

Ölkəmizdə ilk “DOST” (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzi martın axırları-aprelin əvvəllərində paytaxtın Yasamal rayonunda açılacaq. Bu barədə AZƏRTAC-a mərkəzin mətbuat xidmətindən məlumat verərkən onu da bildiriblər ki, ilin sonuna qədər Bakıda daha üç mərkəzin açılması nəzərdə tutulub. Həmin “DOST” mərkəzləri paytaxtın Binəqədi, Nizami və Xəzər rayonlarında açılacaq. Onu da qeyd edək ki, 2019 - 2025-ci illərdə ölkədə 31 “DOST” mərkəzinin açılması nəzərdə tutulur. Bunlardan 5-i Bakı, 2-i Sumqayıt, 2-i Gəncə şəhərində, qalanları isə ölkəmizin digər regionlarında fəaliyyət göstərəcək.

# ÜTT rəsmisi: "Azərbaycanın üzvlüyü ilə bağlı UNEC-də faydalı müzakirələr aparıldı"

***Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük prosesi və ticarət siyasətinə dəstək" mövzusuna həsr olunan tədbir keçirilib.***



SİA-nın verdiyi məlumata görə, UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin təşkilatçılığı ilə keçirilən tədbirdə ÜTT-nin texniki yardım və koordinasiya şöbəsinin rəhbəri Dr.Martin və universitetin professor-müəllim heyəti iştirak edib. UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru Sənnur Əliyev bildirib ki, Azərbaycanın ÜTT-yə üzvlük prosesinə və ticarət siyasətinə dəstək olmaq məqsədilə universitetdə dövlət qurumlarının nümayəndələrinin və Dr.Martin Smitzin iştirakı ilə seminar və dəyirmi masalar təşkil olunub, müzakirələr aparılıb.

UNEC-də olmaqdan məmnunluğunu ifadə edən Dr.Martin Smitz universitetdə 3 gün ərzində çox səmərəli işgüzar görüşlərin keçirildiyini diqqətə çatdırıb. Aparılan müzakirələri, eləcə də universitetin professor-müəllim heyəti ilə görüşü Azərbaycanın ÜTT-yə üzvlüyünün sürətləndirilməsi istiqamətində müsbət addım kimi dəyərləndirib. Azərbaycanın təşkilata 1997-ci ildən üzvlüklə bağlı müraciət etdiyini vurğulayan məruzəçi, üzvlük prosesi ilə bağlı ikitərəfli, həm də çoxtərəfli danışıqların uğurla davam etdiyini, həmçinin, milli qanunvericiliyin ÜTT-nin müvafiq sazişlərinin tələblərinə uyğunlaşdırılması istiqamətində işlərin aparıldığını qeyd edib. Təşkilat rəsmisi ÜTT-nin Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirib.

Tədbirdə professor və müəllimlərin ÜTT-yə üzvlüyün əhəmiyyəti barədə suallarını cavablandıran qonaq bu əməkdaşlığın dünya ölkələri ilə daha sıx ticarət əlaqələrinin qurulmasına, yeni bazarlara çıxış imkanı əldə olunmasına, daxili bazarın libarallaşdırılmasına, məhsulun rəqabətqabiliyyətliliyinin artırılmasına, eləcə də qlobal dəyərlər zəncirinə qoşulmağa, xarici investisiyaların cəlb olunmasına və digər müsbət iqtisadi amillərə xidmət etdiyini bildirib.

Qeyd edək ki, 3 gün ərzində davam edən beynəlxalq seminarlarda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, M aliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Dövlət Gömrük Komitəsinin Akademiyası və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

## Yalançı Çərşənbə

Dörd ünsür hələ çim halında idi,
Su şırıltı salıb axmırdı hələ.
Od özü qığılcım halında idi,
Külək vıyıltısı qalxmırdı hələ.

Əyilmək bilmirdi qışın biləyi,
Çəmənə Səməni ələnməmişdi.
Baxsa da qar altdan novruzçiçəyi,
Torpaq yaşıllığa bələnməmişdi.

Qulaq kəsilmişdik Suyun səsinə,
Yeddi gün qalırdı ilk çərşənbəyə.
Düşüb Yalançının gur həvəsinə,
Qəfil urcah olduq qəlp çərşənbəyə:

"Şaxtası-boranı qışın bir yuxu,
Yazın hərarəti məndə olub cəm.
Adımı Yalançı qoysa da çoxu,
Mən bahar fəslinin müjdəçisiyəm.

Suya şırıltını bəxş edən mənəm,
Mənəm qurdalayan Odun közünü.
Yelin əsməsinə mən verdim yönəm,
Torpaq münbitlikdə tapır özünü.

Adımı Yalançı qoydunuz nədən?
Yazın gəlişini mən gətirmişəm.
İsti nəfəsimdi qarı əridən,
Novruzgülünü də mən bitirmişəm.

Adıma deməyin bir də Yalançı,
Təsəvvür eyləyin tovuzdu gələn.
Gerçəlir min illər xalqın inancı,
Qarşıdan hay-küylə Novruzdu gələn".

***Valeh Məhərrəmli***

# On dörd əcnəbinin saxta sənədlərlə Azərbaycanın dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınıb

***Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması sahəsində tədbirlər uğurla davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlərdə 14 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində alınıb.***



Belə ki, yanvarın 31-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Daşkənd-Bakı reysi ilə uçub gələn Özbəkistan vətəndaşları 1989-cu il təvəllüdlü Muzaffar Radjabovun və 1993-cü il təvəllüdlü Mukhira Abdurasulovanın sərhəd naryadına təqdim etdikləri sənədlərdə saxtalaşdırma əlamətləri aşkarlanıb. Ətraflı yoxlama zamanı şübhələr təsdiqini tapıb.

Fevralın 2-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bağdad-Bakı-Frankfurt reysi ilə tranzit gedən 1963-cü il təvəllüdlü Kassar Ahwood Attianın təqdim etdiyi İsveç pasportunun saxta olması aşkarlanıb. Şəxsin üzərinə baxış zamanı İraq vətəndaşı 1951-ci il təvəllüdlü Huda Esttaifan İssaya məxsus pasport aşkarlanıb.

Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Doha-Bakı reysi ilə uçub gələn Pakistan vətəndaşı 1975-ci il təvəllüdlü Laiq Xanın təqdim etdiyi AB4004112 nömrəli pasportun 1988-ci il təvəllüdlü Gopang Din Muhammada məxsus olması müəyyənləşdirilib. Şəxsin üzərinə baxış zamanı ona məxsus Pakistan sürücülük vəsiqəsi aşkarlanıb.

Fevralın 4-də "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsində Rusiya Federasiyasından Azərbaycan Respublikasına gələn Ukrayna vətəndaşı 1974-cü il təvəllüdlü Bədəlova Diləfruzun sərhəd nəzarətinə təqdim etdiyi pasportunun saxtalaşdırılması müəyyən olunub. Bundan iki gün sonra Heydər Əliyev Beynəlxalq Aeroportunda Moskva-Bakı reysi ilə uçub gələn Özbəkistan vətəndaşı 1979-cu il təvəllüdlü Bibigül Şoevanın pasportunda saxtalaşdırma əlamətləri aşkar edilib.

Fevralın 8-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Kiyev-Helsinki reysi ilə tranzit gedən Pakistan vətəndaşı 1996-cı il təvəllüdlü Abideen Zain Ulun sərhəd nəzarətinə təqdim etdiyi Portuqaliyaya məxsus daimi yaşayış kartının saxta olduğu müəyyən edilib. Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Kiyev-Helsinki reysi ilə tranzit gedən Pakistan vətəndaşı 1988-ci il təvəllüdlü Sheikh Muhammad Avvaisin təqdim etdiyi İtaliyaya məxsus daimi yaşayış kartının saxta olduğu aşkarlanıb.

Fevral 10-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Moskva-Bakı reysi ilə gələn Özbəkistan vətəndaşı 1978-ci il təvəllüdlü Murodova Dilovarın sərhəd nəzarətinə təqdim etdiyi pasportunun saxtalaşdırması müəyyənləşdirilib.

Fevralın 13-də "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində Rusiya Federasiyasından Azərbaycan Respublikasına gələn Özbəkistan vətəndaşı 1987-ci il təvəllüdlü Boynazarov Ozodun pasportunun saxtalaşdırılması aşkarlanıb.

Fevralın 14-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul reysi ilə uçub gedən Pakistan vətəndaşları 1985-ci il təvəllüdlü Salem Waqas və 1997-ci il təvəllüdlü Khadim Saadın sərhəd nəzarətinə təqdim etdikləri pasportlara vurulmuş Danimarkaya məxsus Şengen vizasının tam saxta olması müəyyənləşdirilib. Fevralın 14-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul-Vankuver reysi ilə uçub gedən Hindistan vətəndaşı 1998-ci il təvəllüdlü Akaşdeep Sinqhin pasportuna vurulmuş Kanadaya məxsus vizanın tam saxta olduğu aşkarlanıb.

Fevralın 15-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Frankfurt reysi ilə uçub gedən Türkiyə vətəndaşı 1990-cı il təvəllüdlü Durmaz Remzinin sərhəd nəzarətinə təqdim etdiyi Bolqarıstana məxsus pasportun saxta olmasına şübhə yaranıb və laboratoriya şəraitində yoxlanılan zaman təsdiqini tapıb. Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər görülüb.

## "Müxalifətin birdən-birə mitinqə çağırış etməyini başa düşmürəm"



"Ölkədə siyasi kampaniya getmədiyi halda, hər hansı bir seçki prosesi və yaxud hansısa siyasi hərəkətlənmə olmadığı təqdirdə birdən-birə mitinqə çağırış etməyi başa düşmürəm. Yəni hansı zərurətdən ortaya çıxdığını anlaya bilmirəm. Tutaq ki, onlar yanvarın 19-da gəlib mitinq keçirmişdilər və polisdə məlumat yaydı ki, qayda pozuntusu olmayıb. Amma təəssüflər olsun ki, onlar meydandan kənara çıxıb ictimai asayişi pozan hərəkətlərə yol vermişdilər. Yəni küçədə şüarlar qışqırmaq və metroda hay-küy salmağa cəhd göstərmək kimi hallar baş vermişdi". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

"Təbiidir ki, bu da mitinq təşkilatçılarının məsuliyyət məsələsidir. Biz gözləyirdik ki, o mitinq təşkilatçıları bununla bağlı əlavə açıqlama, izahat verərlər və öz tərəfdarlarına çağırışlar edərlər. Amma biz bunları görmədik. Ona görə də Bakı Şəhər İcra Hakimiyyəti bu əsasları, eyni zamanda ayrı-ayrı şəxslərdən daxil olan şikayətləri əldə rəhbər tutaraq onların indiki halda mitinq keçirməsinə şərait yaradıla bilməyəcəyini elan edib. Düşünürəm ki, müxalifətçi dostlarımız bu məsələyə anlayışla yanaşmalıdırlar. Yəni onlar ölkədə süni gərginlik yaratmağa deyil vətəndaş sülhü yaratmağa xidmət etməlidirlər. Bələki Azərbaycan dövlətinin müvafiq qurumları ilə anlaşma şəraitində öz aksiyalarının keçirilməsi yolları üzərində düşünməlidirlər. Əks təqdirdə təbiidir ki, narazılıqlar artacaq. Yəni onlara münasibət daha da sərtləşəcək. Üstəlik isə vətəndaşlarımız, ayrı-ayrı insanlar özlərinin rahatlığının pozulması hesabına kimlərinsə siyasi xal qazanmasına dözmək fikrində deyillər. Yəni bu baxımdan düşünürəm ki, Bakı Şəhər İcra Hakimiyyəti düzgün addım atıb və yeqinki mitinq keçirmək istəyənlər bir daha götür-qoy edəcəklər və üzərlərinə əlavə öhdəlik götürərək növbəti aksiyaları keçirmək haqqında fikirlərini bildirəcəklər"-deyə, A.Həsrət fikrini tamamlayıb.

## Sarkisyanın qardaşının gizləndiyi ölkə məlum oldu



Serj Sarkisyanın axtarışa verilən qardaşı Levon Sarkisyan ərəb ölkələrindən birində gizlənir. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə ölkənin Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan açıqlama verib.

Onun fikrincə, Levon Sarkisyanın ekstradisiyası məsələsi uzun və çətin prosedur olacaq. "Levon Sarkisyan ərəb ölkələrindən birinə sığınıb. Ekstradisuya uzun və yüzlərlə prosedurdan keçən prosesdir. Onun Ermənistana gətirilməsi üçün mexanizmlər lazımdır". 2018-ci ilin iyununda Levon Sarkisyan, onun oğlu və qızı qanunsuz varlanmaqda ittiham olunublar.

# Məhəmməd Mirzəli Əli Kərimli ilə necə həmxasiyyət olub?

*Milli xainlər indi də dələduzluq yolu ilə pul qazanırlar*




***Bir müddət öncə, Tural Sadıqlı ilə qrant savaşına çıxmış Məhəmməd Mirzəlinin adı yenidən pul qalmaqalında hallanır. Bu dəfə onun "mitinqə adam yığmaq" adı altındakı dələduzluq faktı ortaya çıxıb. Məlum olduğu kimi, Bakı Şəhər İcra Hakimiyyəti "Milli Şura"nın keçirmək istədiyi növbəti mitinqinə icazə verməyib.***

Rəsmi məlumatda bildirilir ki, ötən mitinqdən bu günə qədər hüquq-mühafizə orqanlarına və Bakı Şəhər İcra Hakimiyyətinə 200-dən artıq şikayət daxil olub. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək imkanında olmadıqları qənaəti yarandığından, mitinqlə əlaqədar müraciət məqsədəuyğun hesab edilməyib.

## Məhəmməd Əsmətə 100 avronu necə "atıb"

Bir neçə gündür ki, M.Mirzəli sosial şəbəkələr vasitəsi ilə insanlara müraciət edərək, artıq icazə verilməmiş "23 fevral mitinqinə" guya rayonlardan gəlmək istəyən imkansız adamlara pul yığılması üçün təbliğat aparır. Onun dələduzluq toruna düşənlər də var. Əldə etdiyimiz məlumata görə, Almaniyada yaşayan Əsmət Ağayeva adlı şəxs Məhəmmədə zəng edərək, 100 avro göndərmək istədiyini bildirib və ondan maddi vəsaiti ödəyəcəyi ünvanı istəyib. M.Mirzəli də öz bank hesabını Əsmətə göndərib. Lakin o, pulu cibinə qoyub, yəni Məhəmməd Əsmətə "atıb"...

## İnsanları şirin vədləri ilə torlarına salırlar

Hazırda Ə.Ağayeva göndərdiyi 100 avronun Azərbaycanda kimə göndərilməsi barədə hesabat tələb edir. Mirzəli isə, onu inandırmağa çalışır ki, pulu göndərdiyi adı mitinqdən sonra açıqlayacaq və s. Lakin qeyd elədiyimiz kimi, mitinq olmayacaq. Artıq belə nəticəyə gəlmək olar ki, M.Mirzəli dələduzluqla məşğuldur və insanları aldatmaqla şəxsi maddi maraqlarını təmin edir. Bu fakt isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, nəinki Avropadakı milli xainlər, eləcə də, onları buradan idarə edən AXCP sədri Əli Kərimli aksiyalar keçirmək adı altında insanları aldadır, onları şirin vədləri ilə torlarına salmağa cəhdlər göstərirlər.

O da, əbəs deyil ki, hazırkı vaxta qədər Ə.Kərimli dəfələrlə ona pul ödəyən müxtəlif dairələri aldadıb, dələduzuq edərək, vəsaitləri mənimsəyib. Bu barədə isə, zaman-zaman müxtəlif mənbələrdən faktlara əsaslanan informasiyalar verilib. Nə edəsən, atalar demişkən, atı-atı yanına bağlasan, həmrəng olmasa da, həmxasiyyət olur. İndi, M.Mirzəli ilə AXCP sədri Ə.Kərimlinin xasiyyəti, daha dəqiq desək, onların dələduzluq şakərləri də üst-üstə düşür.

*Rövşən RƏSULOV*

# "Nar" ölkə üçün əhəmiyyətli sosial layihələrini bu il də davam etdirəcək



Ölkənin ən gənc mobil operatoru olan "Nar", şəbəkənin genişləndirilməsi, yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət strategiyası ilə yanaşı, ölkə üçün əhəmiyyətli sosial layihələr reallaşdırmaqdadır. Mobil operator özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində fiziki məhdudiyyətli insanlara qayğı, onların cəmiyyətə inteqrasiyası, eyni zamanda təhsil və maariflənmənin inkişafı, gənclər arasında idmanın təbliği istiqamətində sosial layihələrini bu il də davam etdirəcək. Xüsusilə də fiziki məhdudiyyətli insanların işlə təmin olunması, onların müxtəlif peşə bacarıqlarına yiyələnməsi istiqamətində müxtəlif addımlar atacaq. Qeyd edək ki, "Nar" ötən il 21 sosial layihəni uğurla icra edib.

"Azerfon"un İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, "Nar" telekommunikasiya sahəsinə irihəcmli investisiyalar yatırmaqla yanaşı, əhəmiyyətli sosial layihələr həyata keçirməkdə davam edəcək: ""Nar" telekommunikasiya sahəsi ilə yanaşı, cəmiyyət üçün həssas olan məsələlərdə iştirak etməyi özünə borc bilir. "Nar" olaraq, korporativ sosial məsuliyyət strategiyası çərçivəsində bu il də əsas hədəfimiz fiziki məhdudiyyətli insanlara dəstək, eləcə də elm və təhsilin təbliğidir".

Xatırladaq ki, "Nar" ötən il bir çox uğurlu layihələr icra edib. Autizm sindromundan əziyyət çəkən, eşitmə məhdudiyyəti olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqlara dəstək olub. Mobil operator eyni zamanda, gənclərdə oxumaq həvəsini artırmaq, gənc kadrların formalaşması üçün müsabiqələrə, intellektual yarışlara dəstəyini nümayiş etdirib, müxtəlif universitetlərlə əməkdaşlıq qurub və onların təqaüd proqramında iştirak edib. Mobil operatorun KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Belə aksiyalara diqqət göstərən dairələrin məqsədləri var"



"Ümumiyyətlə, müxalifətin keçirmək istədiyi və əslində heç bir mahiyyət, məzmun daşımayan mitinqlər axı bu gün Azərbaycanda kimə lazımdır və yaxud lazımdırmı? Əgər nəzərə alsaq ki, həmin aksiyalarda ölkənin böyük problemləri bir yana qalsın, hətta ən xırda problemlərin belə həlli üçün hər hansı bir mühit, şərait yaranmırsa, eləcə də hansısa problemin həlli üçün yeni bir imkan, şərait artırmırsa, onda doğurdan da bu aksiyaların kimə lazım olması həqiqətən sual doğurur. Əlbəttə ki, belə aksiyaların keçirilməsi üçün diqqət göstərən dairələrin özlərinin məqsədləri var. Onlar Azərbaycan siyasi mühitində hələ də mövcud olduqlarını və ya mövcud olmaq istədiklərini nümayiş etdirirlər". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, onlar Azərbaycanın bugünkü inkişaf məsələlərində öz fəaliyyətlərini davam etdirmək istəyirlər və müəyyən xarici mərkəzlərin dəstəyini almağa çalışırlar: "Eləcə də özlərini guya Azərbaycanın ən demokratik və islahatçı qüvvələri kimi göstərməyə çalışıblar. Aydın məsələdir ki, cəmiyyəti radikallaşdırmaq və radikal bir dalğanın üstündən özlərinin siyasi məqsədlərinə nail olmaq istəyirlər. Amma bu məqsədlərin hər birini ayrı-ayrılıqda təhlil etdikdə, onların hər hansı bir perspektivinin olması qəti şəkildə inkar olunur. Çünki bu məqsədlərin həyata keçirilməsi üçün çox gərəkli olan geniş sosial baza onlarda yoxdur. Beləki ölkədə hakimiyyətin apardığı siyasət nəticəsində rəsmi kursun ətrafında o qədər geniş bir sosial baza var ki, radikal müxalifətin özünə sosial baza toplamaq imkanları qəti şəkildə tükənib.

İkincisi, bu gün dünyanın əgər taleyi enerji təhlükəsizliyi, şəxsi təhlükəsizliklə və millətlərarası münasibətlərdə tolerant mühitlə bağlıdırsa belə məqsədlərin, işlərin həyata keçirilməsində dünyanın aparıcı dövlətləri məhz Azərbaycan dövlətinin rəsmi təmsilçisi olan Prezident İlham Əliyevlə işləyirlər. Nəzərə alsaq ki, dünyanın aparıcı qüvvələri mütləq şəkildə Azərbaycan hakimiyyətini qəbul edib və onunla işləyirlər. Belə bir şəraitdə ölkənin daxilindəki radikal qüvvələrə xaricdən bununla bağlı hər hansı bir dəstəyin ola biləcəyi də mümkünsüzdür. Ona görə də belə aksiyaların keçirilməsi cəhdləri bu başdan iflasa məhkumdur. Həm də hakimiyyət orqanlarının bu aksiyaya icazə verməməsinin özü də çox ciddi əsaslara malikdir. Çünki indiyə qədərki xüsusilə də son bir ay müddətində keçirilən aksiyalarda rastlaşdığımız pozuntuların araşdırılması hələ tamamilə başa çatmayıb. Bu aksiyaların keçirilməsi üçün təşkilatçılıq məsuliyyətini öz üzərinə götürən dairələr hüquq pozuntularının olmayacağı, sabitliyin təmin olunacağı ilə bağlı hər hansı bir öhdəlik götürmürlər".

*Ceyhun Rasimoğlu*

# "Həmsədrlər şəkil çəkdirib ATƏT-dən aldıqları pulları siləcəklər"



"ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona növbəti səfərində məqsəd ölkəmizin hərb planını bir növ ikinci cərgəyə keçirməkdir. Çünki Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, ölkəmiz öz ərazi bütövlüyünü hansı yolla olur-olsun bərpa edəcək. Bizim məqsədimiz müharibə deyil və müharibə istəmirik. Amma ərazi bütövlüyümüzün bərpasını da istəyirik". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Politoloqun sözlərinə görə, əgər ATƏT yenə də dişsiz fəaliyyət göstərəcəksə, proseslərə ikili standartlarla yanaşacaqsa, işğalçı ilə işğal olunan ərazini bərabər tutacaqsa və yenə də hər iki tərəfin müəyyən güzəştlər etməyini gündəmə gətirəcəksə bu o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpasını istəmirlər: "Ümumiyyətlə ATƏT-in həmsədrləri xristian klubudur. Bu xristian klubunun da əsas məqsədi Azərbaycanın ərazi bütövlüyünü mövcud sual işarəsi altına qoymaqdır. Bunlar həm də çalışırlar ki, Azərbaycandakı bu qarşıdurma daha da güclənsin. Yəni bütün hallarda yenə də Azərbaycan Prezidenti onları qəbul edəcək və onlar yenə də gəlib gedəcəklər. Sadəcə bir şəkil çəkdirib ATƏT-dən aldıqları pulları siləcəklər. Eləcə də onlar Azərbaycanın öhdəliyi üzvülük haqqından da yararlanacaqlar. Mən onların səfərindən başqa heç bir şey gözləmirəm".

# Vaşinqtondan İrəvana "renouncement" komandası



Vaşinqton Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyanla əvvəlcədən razılaşdırılmış görüşdən imtina edib. SİA-nın verdiyi xəbərə görə, bu barədə "Qraparak" qəzeti Ermənistan Xarici İşlər Nazirliyindəki mənbəsinə istinadən yazıb. Qeyd olunur ki, Ermənistan tərəfi uzun müddət idi ki, bu görüşün baş tutması üçün çalışırdı və artıq hər şey planlaşdırılmışdı. Lakin İrəvanın Moskvaya doğru bircə addımı üzündən görüş təxirə salınıb. "Mənbəmizin sözlərinə görə, planlaşdırılmış görüşün təxirə salınmasında Con Boltonun (ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi) Paşiyanla telefon söhbəti həlledici rol oynayıb. Söhbət zamanı Bolton soruşub ki, "Suriyaya missiya göndərmək yekun və geriyə dönüşü olmayan qərardırmı?" Paşinyan da "hə" cavabını verib. İndi də Ermənistan XİN bütün kanallar vasitəsilə vəziyyəti düzəltmək və xüsusən də, ABŞ dövlət katibi Mayk Pompeodan Mnatsakanyanla görüş üçün dəvət almağa çalışır, amma hələ ki, bütün cəhdlər nəticəsiz qalıb", - qəzet yazıb.

Mənbə onu da istisna etməyib ki, məsələni həll edə bilməsə, rəsmi İrəvan Mnatsakanyanın Vaşinqtona səfərinin təşkili üçün ABŞ-dakı erməni lobbisindən kömək istəyəcək: "Çünki indi bizim Vaşinqtondakı səfrimiz də heç də yaxşı durumda deyil".

# Anlamazları anlatmaq müşküldür

*Və ya AXCP-"Milli Şura"nın "liderləri" heç vaxt anlamayacaqlar*

***Müxalifətin, xüsusən də, bu düşərgədə yer alanların dağıdıcı qanadının nəinki elektoratı, həm də ağıl deyilən nemət yoxdur. Olsaydı, qanardılar ki, 25 ildən çoxdur ki, düşüncəsiz halda uğursuz, biabırçı mitinqlərlə xalqın nifrətini qazanıblar. Bunu anlamayan Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı və digərləri, necə deyərlər, bir zəhmətkeş heyvan olan uzunqulaq palçığa batanda, ikinci dəfə batmır, heç olmasa, bu məsəli yadlarına salıb, onlar da bu yolu getməsələr yaxşı olar. Ancaq əvvəldə dediyim kimi, anlasalar.***

Anlasaydılar, görərdilər ki, indiyə qədər ölkədə keçirilən bütün seçkilərdə, rusvayçı nəticə ilə məğlub olduqları kimi, mitinqləri də biabırçı olub. Bu biabırçılıqdan sonra həyasızcasına yenidən mitinq keçirmək iddiasına düşmələri, doğurdan da, həyasızlıqdan savayı, bir şey deyil. Özlərinin gözlənən acı məğlubiyyətlərini bəribaşdan sığortalamağa çalışaraq, ölkədə söz, fikir, mətbuat, sərbəst toplaşmaq azadlıqlarının olmaması barədə sosial şəbəkələrdə qərəzli və bəyanatlar səsləndirməkdən əl çəkmirlər.

### Sərdar Cəlaloğlu: "Zorakı "müqavimət lideri" olmaq elə anlamazlıqdır"

ADP sədri Sərdar Cəlaloğlu müxalifətin uğursuzluğunun əsas səbəbinə aydınlıq gətirərək, bildirib ki, düşərgə "liderləri" zorakı "müqavimiət lideri" olmaq istəyirlər ki, buna da anlamazlıq deyərlər: "Liderlər tarixin sürətini dəyişən şəxslərdir, daha zorən küçə" lideri olmaq" deyil. Hər bir mübarizə üsulunun ona xas "lider" tipi olmalıdır.



S.Cəlaloğlu onu da bildirib ki, liderin özünü qurban verməsini, ona zorla qəbul etdirmək olmaz: "Lider öz dəyərlərini tərəfdarlarına zorla qəbul etdirmədiyinə görə, ardıcıllarına şəxsi məsuliyyət hissi aşılanır. Təəssüf ki, müxalifət düşərgəsində belə "liderlər" yoxdur və ona görə də, özlərini zorən "lider" hesab edənlərin ardınca gedənlər də yoxdur. Bax, budur, anlamazlıq".

### "Qaragüruhu öz arxasınca aparan lider üçün də qaragüruh real təhlükədir"

S.Cəlaloğlu, onu da vurğulayıb ki, bu, bir faktordur ki, qaragüruhu öz arxasınca aparan lider üçün də qaragüruh real təhlükədir: "Bu gün müxalif "liderlər," nəinki qaragüruhdan imtina edir, əksinə, öz ətraflarına, məhz qaragüruh yığını toplayır. Çünki onları aldatmaq çox asan olur. Bəzi liderlər qaragüruhun sevgisindən həzz alırlar. Amma unudurlar ki, kütlənin "lider" sevgisinin onun ideyalarına qətiyyən aidiyyatı yoxdur. Qaragüruhla lider arasındakı əlaqə xalis şəxsi emosional əlaqədir. Buna görə, bu emosional əlaqə qırılan andan lider həmin kütlənin düşməninə çevrilir. Mən dəfələrlə iclaslarda və mitinqlərdə istefa qışqırmağın və ya hansısa liderin adını çəkib, çəpik çalmağı düzgün hesab etməmişəm. Çünki bütün bunlar emosional reaksiyalardır və bu emosiyalar bu adamlara ağıllı sözü eşitməyə, onu dərk etməyə imkan vermir".

Bu gün zorən AXCP sədri Ə.Kərimli və "Milli Şura" kimi ölü qurumun zorən "liderləri" bir qrup satqın, cinayətkar və anlamazları zorən "siyasi mühacir" etməklə, qraantlar əldə etmək üçün əxlaqsız çağırışlar tapşırıqları verməlidirlər. O əxlaqsız "siyasi mühacirlər" də, aldıqları qrantlara görə, bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Belə ki, Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər və yaxud da tarixi və önəmli günlər ərəfəsi xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğata start verilir, mitinqlər keçirmək iddiasına düşürlər. Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli, R.İboahimbəyov, G.Hacıbəyli, L.Yunus, X.İsmayıl və həmişə olduğu kimi, bu gün də 5-10 avro müqabilində erməni puluna digəri satın alınmışlar, beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışırlar. Bu anlamazlar anlamırlar ki, Azərbaycanın müstəqil daxili və xarici siyasəti və yüksək beynəlxalq imici var. Ə.Kərimli kimilər anlamalıdırlar ki, dövlətimizin heç bir qüvvənin qarşısında əyilməz, qətiyyətli, ardıcıl və prinsipial siyasəti var. Odur ki, sifarişlə çalışan dağıdıcı qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var.

**R.HÜSEYNOVA**

# Baş redaktordan Natiq Ədilova: "Söyüş alnınıza yazılıb!"

*Sənan Nəcəfov: "Abırın, həyan olsun, əgər yazdıqlarıma cavab olaraq yalan uydurursansa, sən də getdin mırzalı, tural siyahısına"*

***"Cəbhənin Fransaya qaçmış mətbuat xidmətinin rəhbəri son günlər, deyəsən, ancaq mənimlə bağlı paylaşım edir. Bunu içlərində nisbətən normal sayırdım". Bu fikirləri "qhtxeber" saytının baş redaktoru Sənan Nəcəfov AXCP sədri Əli Kərimlinin Fransada "siyasi mühacir" adı altında məskunlaşan mətbuat katibi Natiq Ədilovun "facebook" sosial şəbəkəsində onunla bağlı böhtan və yalanlara söykənən paylaşımlarına münasibətini açıqlayarkən deyib.***

### "Deyəsən, sizə bolşevik əmiləriniz qəribə miras qoyub: "Pravda" qəzetinin adında "doğru" sözü yetərlidir, qalanı yalan da ola bilər"

S.Nəcəfovun qeyd etdiyinə görə, N.Ədilov dəfələrlə deyib ki, haqqında yalan məlumatlar yayılır, həyatına təhlükə var və s: "Amma özü narahat olduğu məsələni başqasına tətbiq edir.



"Azadlıq" qəzetinin "facebook" səhifəsində bir məlumat, öz səhifəsində ikinci və yenidən mənsub olduğu qəzetin səhifəsində videoməlumat paylaşıb. Hamısı da yalan! Deyəsən, sizə bolşevik əmiləriniz qəribə miras qoyub: "Pravda" qəzetinin adında "doğru" sözü yetərlidir, qalanı yalan da ola bilər. O reportajlarda mənim adım, soyadım və vaxtilə işlədiyim qəzetdən başqa bütün deyilənlər yalandı. Rədd olub getmisən xaricə, ölkədə baş verənlərdən xəbərin yoxdur".

Baş redaktor əlavə edib ki, N.Ədilovun böhtan və yalanlarına onun özü kimiləri söyüş və təhqirlərlə rəylər yazırlar. Lakin onlar unudurlar ki, etdikləri təhqirlərinin hər birinin cavabı 5 qat artır: "Paylaşır, mayası yalan və söyüşlə yoğrulanlar da döşəyirlər söyüşlərdən. Təbii ki, cavabsız qalmırlar. Hər söyüş söyən cavabını 5 qat alır. Bu, heç..."

### "İndi soruşuram, Natiq, sən bununla sübut etmirsənmi ki, Kərimli Əlinin yalan mexanizminin başında oturmusan?"

S.Nəcəfova görə, N.Ədilov AXCP sədri Ə.Kərimlinin yalan mexanizminin başında oturub, lakin yalanlarla kütləni, uzağı, bir-iki dəfə özünə tərəf cəlb etmək olar, sonradan kütlə anlayanda ki, onlara yalan danışırlar, bu zaman hər kəs həmin yalançılardan və şərbazlardan imtina edir. Baş redaktor son olaraq, Ə.Kərimlinin mətbuat xidmətinin rəhbərinə bir neçə suallar ünvanlayıb və onu T.Sadıqlı, M.Mirzəli ilə eyniləşdirib: "İndi soruşuram, Natiq, sən bununla sübut etmirsənmi ki, Kərimli Əlinin yalan mexanizminin başında oturmusan? Yalan məlumatlarla kütləni 1 dəfə, iki dəfə aldada bilərsən, həmişə aldatmağın mümkün deyil, axı. Abırın, həyan olsun, əgər yazdıqlarıma cavab olaraq, yalan uydurursansa, sən də getdin mırzalı, Tural siyahısına. Onlar da eyni texnika ilə şər-böhtan yayırdılar, sən də. Fərqiniz nədir?

Söyüş alnınıza yazılıb!"

**Rövşən RƏSULOV**



## Öz gözlərində tir görməyənlər...

**RƏFİQƏ**

***Dağıdıcı düşərgə "liderləri" "qaşınmayan yerdən qan çıxarmaq" və ölkədə sabit siyasi vəziyyəti gərginləşdirmək üçün dəridən-qabıqdan çıxırlar. Soruşmaq istərdik: hansı güclə, hansı sosial baza ilə? Fakt bildirdi ki, ölkədə müxalifətin sosial bazası yox səviyyəsindədir, xüsusən də, radikal müxalifətin. Bəs bunun səbəbləri nədir? Müxalifət bu barədə düşünübmü? Təbii ki, yox. Ancaq bunun da səbəbləri müxtəlifdir. Daha dəqiqi, bu səbəbləri onların öz içərisində axtarmaq lazımdır. Məsələn, 25 ildir ki, müxalifət "fəaliyyət" göstərir, əgər buna "fəaliyyət" demək olarsa. Bu müddət ərzində, onlar ortaya normal bir fəaliyyət qoya bilmədikləri və belə anormal fəaliyyətin nəticəsi seçkilərdə məğlub olmaları və dəfələrlə sübuta yetirilib.***

Başqa cür də ola bilməz. Xarici maraqlı dairələrin tör-töküntü olanlarını da itirə-itirə gəlirlər. Özü də birbirlərini qıra-qıra, düşmən elan edə-edə!

Ətraflarına yığdıqları trollarının gözlərinin içinə qədər yalan sırıyan "liderlər" seçkilərdən-seçkilərə bəyan edirlər ki, onların partiyalarına böyük axın var, seçkilərdən sonra isə, nəyi görürük? İttihamlar, haikimiyyətə qarşı böhtan və şər kampaniyaları. Hələ bir dəfə görmədik ki, özlərini müxalifətin, nəninki "anası", hətta "atası" elan edənlər durub desinlər - GÜNAHKAR MƏNƏM! Heç görməyəcəyik də. Çünki xəmiləri satqınçılıq, xəyanətkarlıqla yoğrulan əlilərin, isaların, ariflərin, cəmil... kimi fərdlərin əxlaqsızlığı, mənəviyyatsızlığı imkan vermir. Mənəviyyatları və əxlaqları qranta bağlıdır.

Elə buna görədir ki, bir az bu çirkin əməllərdən uzaq olanlar, həmin çirkab yurdundan uzaqlaşırlar. Belə vəziyyətin yaranması, təbii ki, onların öz fəaliyyətləri ilə bağlıdır. Çünki müxalifət heç vaxt yanlış səhvləri müzakirə etməyib, indiyə qədər seçkiləri uduzmaq səbəblərini araşdırmayıb. İndiyə qədər müxalifətin tədbirlərinin böyük əksəriyyəti, məhz partiyaların bir-birilə yarışması kimi yadda qalıb. Bu partiyalar uzun illərdir ki, sanki öz aralarında yarışa girib. Çünki onların elə əsas məqsədi bir-birilə yarış aparmaqdır.

Bununla belə, ölkədəki müxalif düşərgənin hamısını dağıdıcı hesab etmək olmaz. O da, bəllidir ki, müxalif düşərgənin bir hissəsi konstruktiv müxalifəti təmsil edir. Belə ki, dağıdıcı müxalifətdən fərqli olaraq, proseslərə daha real və praqmatik yanaşırlar. Söz yox ki, belə məqamda daha bir sual meydana çıxır - konstruktiv müxalifətin sosial dayaqları daha böyükdür, yoxsa dağıdıcı müxalifətin? İlk baxışdan demək mümkündür ki, radikallar seçkiləri uduza-uduza gəliblər. O cümlədən, ictimai-siyasi proseslərə təsir imkanları sıfır həddində olan dağıdıcı təmayüllülərdən xalq da imtina edib. Dağıdıcı müxalifətlə müqayisədə konstruktiv müxalifətin sosial dayaqları daha çoxdur. Onları dağıdıcılardan, məhz bu kimi amillər fərqləndirir.

Bu gün dağıdıcılara nisbətən konstruktiv müxalifətin sosial bazası, ona görə böyükdür ki, onlar proseslərin gedişinə daha realist, praqmatik prizmadan yanaşırlar. Populist, ambisiyalı və reallığa uyğun olmayan vədlər vermirlər. İqtidarın yürütdüyü siyasəti kökündən inkar etmir, uğurları isə təqdir edirlər. Bu da, istər-istəməz, onların cəmiyyətdə özlərinə tərəfdar tapmalarına kömək edir. Yəni bu faktorları parlamentdə təmsil olunan konstruktiv müxalifət təmsilçilərinin mövqeyindən də sezmək mümkündür.

Ona görə də, bu gün hakimiyyətə yersiz iftiralar atıb tənqid deyil, hətta düşmənçilik edən dağıdıcı müxalifət, ən azından, vaxtilə onlarla bir olmuş insanlardan ibrət dərsi götürməlidir. Amma görünən budur ki,öz gözlərində tir görməyənlər, özgə gözündə qıl axtarırlar. Elə isə uduzmaqlarında, rüsvay və biabır olmalarında davam etsinlər.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

***Hər il müqəddəs Ramazan bayramında Leyla xanım Əliyeva tərəfindən Moskvada iftar süfrələrinin təşkili də xoş bir ənənəyə çevrilib. Azərbaycan diasporunun nümayəndələrinin, oruc tutan azərbaycanlı gənclərin, müxtəlif millətlərdən olan qonaqların iştirak etdiyi bu tədbirlər təkcə dini mərasim kimi deyil, maraqlı mədəniyyət hadisələri kimi yadda qalır. İftarda Azərbaycan haqqında film nümayiş etdirilir, bütün gecə boyu milli musiqi səsləndirilir. İftar mərasiminin keçirildiyi çadırın önündə Azərbaycan rəssamlarının yaratdıqları əsərlərdən - Bakının görüntüləri, Azərbaycanın füsunkar təbiəti və tarixi abidələri təsvir edilmiş rəsmlərdən ibarət sərgi təşkil olunur. "Baku", "AMOR", "İrs" jurnallarının nüsxələri, Heydər Əliyev Fondu tərəfindən Azərbaycan haqqında nəşr olunmuş yeni çap məhsulu, ölkəmizdən bəhs edən multimedia diskləri və Azərbaycanın gözəl görüntülərini əks etdirən açıqcalar paylanır.***

Dünya dövlətlərinə inteqrasiyada maraqlı olan qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə doğru addımlarını davam etdirir. Bütün bu cəhdlər öz nəticəsini verir. Moskvada Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin dəstəyi ilə "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması da, məhz Azərbaycan reallıqlarını özündə ehtiva edən nümunədir. Kitabın ön sözündə Leyla xanım Əliyeva qeyd edir ki, Ümummilli Lider Heydər Əliyev Rusiya ilə münasibətlərin Azərbaycan üçün çox əhəmiyyətli olmasına əmin idi. Bu münasibətlər həm iqtisadi, həm siyasi, həm də mədəni baxımdan mühümdür. "...Azərbaycanın Ümummilli Lideri həmişə əmin idi ki, sivilizasiyalararası münaqişələri mədəniyyətlərin dialoqu, kommunikasiyaların transmədəni formaları dövrü əvəzləməlidir".

RAGT-ın, qısa müddət ərzində, əldə etdiyi müstəsna uğurlar, onun beynəlxalq proseslərə inteqrasiyası, heç şübhəsiz ki, Leyla xanım Əliyevanın məqsədyönlü fəaliyyətinin nəticəsidir. Rəhbərlik etdiyi qurumun sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə müsbət töhfəsi beynəlxalq aləmin diqqətindədir. Bu gün RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı ən yüksək səviyyədə öz layiqli qiymətini alır. RAGT olduqca lazımlı və faydalı fəaliyyət formalarından istifadə edərək, mədəni-maarif və sosial layihələr vasitəsilə vətəndaşlıq şüurunun inkişafına şərait yaradır.

"Gənclər Sivilizasiyaların Alyansı uğrunda" Qlobal Hərəkatın yaradılması və inkişafı ideyasının reallaşması isə, Leyla xanım Əliyevanın şəxsində ümumən Azərbaycan gəncliyinin ötən illərdə əldə etdiyi ən ciddi nailiyyətlərdəndir. Ümumilikdə, bütün Azərbaycan gəncləri, məhz Azərbaycan təmsilçisi Leyla xanım Əliyevanın "Sivilizasiyalar Alyansı"nın Gənclər Məsləhət Şurasına seçilməsi və İslam Konfransı Təşkilatının 57 ölkəsini burada layiqincə təmsil etməsi faktı ilə qürur duyurlar. Bu təşəbbüsün uğur qazanması həm Azərbaycan, həm də Rusiya üçün maraqlıdır.

Gənclər Forumunun baş əlaqələndiricisi kimi, Leyla xanımın fəaliyyəti 2007-ci ildən başlanır. Bu illər ərzində, o, gənc peşəkarlardan ibarət komandası ilə birgə forumun strukturunu möhkəmlətməklə bərabər, bir sıra iri tədbirlərin və çoxsaylı layihələrin həyata keçirilməsinə nail olmuşdur. Azərbaycan gəncləri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında, coğrafi əhatəsinə görə, ən fəal gənclərdir. Azərbaycanda çoxsaylı etnoslar və dinlər dinc yanaşı yaşayır və bizim ölkədəki tolerantlıq mühiti qürur duymağa və təqdir edilməyə layiq nümunədir. Gənclər Forumundakı fəaliyyət kontekstində 2011-ci il aprel ayında Bakıda "Sivilizasiyaların Alyansı uğrunda" Qlobal Gənclər Hərəkatının birinci qurultayının keçirilməsi ilə yadda qalmışdır. Bir neçə illik iş nəticəsində Qlobal Gənclər Hərəkatının təsis edilməsi və onun institusionallaşdırılması mümkün olmuşdur. Ümumiyyətlə, Gənclər Forumu dünyada ən fəal gənclik qurumlarından biridir və bir sıra təşəbbüslərdə yaxından iştirak edir. Forum çərçivəsində - 10 gənc müsəlman mükafatı da təsis edilmişdir. Bu mükafat gənc nəslin yaradıcı və maraqlı ideyalarının populyarlaşdırılmasına real töhfədir və islam dünyasının gəncləri arasında fəallığı stimullaşdırır. İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu çərçivəsində tələbə mübadiləsi proqramı da həyata keçirilir. Bu proqram təşkilata dinamizm gətirir, onun fasiləsiz inkişafını təmin edir.

Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda "İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Gənc İş Adamları Şəbəkəsi"nin təsis edilməsi də dövrümüzün son dərəcə əhəmiyyətli hadisələrindəndir. Şəbəkə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə fəaliyyət göstərən gənc iş adamları üçün birgə fəaliyyət üzrə platform rolunu oynamaqla, onların arasında biznes sahəsində məlumat və təcrübə mübadiləsinin, qlobal səviyyədə innovativ ideyaların dəstəklənməsinin həyata keçirilməsinə imkan yaradır. Leyla Əliyeva hesab edir ki, sahibkarlıq çox güclü iradə, yaradıcılıq bacarığına malik olmaq deməkdir. Bu, sərhəd tanımadan, heç bir məhdudiyyət qoymadan inkişafı nəzərdə tutur. Sahibkarlıq həm də yaranan imkanlardan istifadə, müxtəlif cəmiyyətlərdə, icmalarda işləmək deməkdir, müxtəlif cəmiyyətlərin mədəniyyətləri ilə təmasda olmaqdır. Uğurlu sahibkarlıq İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr üçün də çox vacibdir. Burada belə bir sual yaranır: biz islam ölkələrinə necə kömək edək ki, müasir dünyada onlar da öz yerini tuta və rəqabətdə güclü ola bilsinlər? Təhlillər göstərir ki, islam ölkələrinin çoxunda adambaşına düşən gəlir inkişaf etmiş ölkələrlə müqayisədə çox aşağıdır. Buna görə də gənc iş adamlarının səylərinin səfərbər edilməsi çox önəmlidir. Bu gün vacib bir sual aktual xarakter daşıyır: İƏT üzvü olan ölkələrdə sahibkarlığın daha da inkişaf etdirilməsi üçün nə etməliyik, hansı tədbirləri görməliyik? Leyla xanım hesab edir ki, belə bir şəbəkə həm Azərbaycanda, həm də digər ölkələrdə fəaliyyət göstərən gənc sahibkarların bacarıqlarının artırılmasına və gücləndirilməsinə kömək göstərəcək: "Ümidvaram ki, gənc sahibkarların potensialının artırılması innovasiyalara əsaslanacaqdır. Bundan başqa, düşünürəm ki, bu şəbəkə birlikdə işləyərək biznesin, daha güclü mədəniyyətin, sosial məsuliyyətin yaradılmasına xidmət edəcəkdir". Belə bir şəbəkənin, məhz Bakıda elan edilməsi isə fərəh doğuran faktdır.

**Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə start götürən daha bir qlobal layihə - Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq təşəbbüsü - IDEA haqqında da söhbət açmaq yerinə düşərdi. Bu kampaniya çərçivəsində, atılan ilk addımlardan biri kimi, BMT İnkişaf Proqramı ilə saziş imzalanmış, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilmişdir.**

Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə start götürən daha bir qlobal layihə - Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq təşəbbüsü - IDEA haqqında da söhbət açmaq yerinə düşərdi. Bu kampaniya çərçivəsində, atılan ilk addımlardan biri kimi, BMT İnkişaf Proqramı ilə saziş imzalanmış, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilmişdir. Leyla xanım özü IDEA-nı müasir dövrün çağırışlarına cavab təşəbbüsü kimi qiymətləndirir: "İndi ekologiya və ətraf mühitin qorunması barədə hamı danışır. Bizim təşəbbüs isə dəb xatirinə deyildir, bu, nə isə real və hissolunan işlər görmək istəyidir. Mənim fikrimcə, bugünkü gəncləri bir məsələ narahat etməlidir: sabah biz necə dünyada yaşayacağıq?! Bizi nələr gözləyir, ekoloji problemlərin nə kimi nəticələri ola bilər?! Biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki-sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub-saxlanmasına birgə töhfə verməliyik".

Bütün bunları nəzərə alaraq, elan edilmiş və dünyanın bir sıra nüfuzlu kürsülərində, o cümlədən, Böyük Britaniya parlamentinin Lordlar Palatasında təqdimatı keçirilmiş IDEA qlobal gənclik ekoloji kampaniyasının nəticələri isə, gözləniləndən də böyük olmuşdur. Qısa müddətdə gələcək fəaliyyət üçün genişmiqyaslı zəmin yaradılmış, IDEA xətti ilə həyata keçirilən tədbirlərə gənclərin və tələbələrin, demək olar ki, bütün iri təşkilatları qoşulmuşdur. Bu, IDEA-nın "Bir planet - bir gələcək" devizini də bir daha təsdiqləyir. Kampaniya çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində yüz minlərlə ağac əkilmişdir.

Leyla xanım Əliyeva "Ağacların kəsilməsinə yox!" proqramını irəli sürüb. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda, qaynar xətt vasitəsilə şikayət və təkliflərini IDEA İctimai Birliyinə çatdıra bilərlər.

Gənclər komandası edilən müraciətlərə əsasən, sahibsiz heyvanlar üçün xüsusi sığınacaq yaradılması layihəsi üzərində işə başlamışdır. Bundan əlavə, IDEA Azərbaycanda "böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən etmişdir. Bunlar ayı, qartal, canavar, ceyran və Qafqaz bəbiridir. Bu problemlə bağlı Azərbaycan və dünya ictimaiyyətinin maksimum məlumatlandırılması, yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub-saxlanması üçün konkret layihələrin həyata keçirilməsi məqsəd kimi müəyyənləşdirilmişdir. Heydər Əliyev Fondu Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycan ceyranlarının qorunması və onların təbii yaşayış mühitinə köçürülməsi layihəsini reallaşdırmışdır. Xüsusi sensor qurğular təbiətin bu zərif canlılarının yerdəyişməsini izləməyə, ceyranların qanunsuz ovlanması hallarını qeyd etməyə və onların qorunub- saxlanması üzrə qabaqlayıcı tədbirlər görməyə imkan verir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**səs**

*Son səhifə* *22 fevral*

## *Yaşıl çay mikrob əleyhinə güclü təsirə malikdir*

Yaşıl və qara çay eyni koldan yığılsa da, fərq yalnız çay yarpaqlarının emalındadır. Qara çay xüsusi şəraitdə qurudulur və bunun nəticəsində onun tərkibi bir qədər dəyişərək fermentasiya olunur. Yaşıl çay isə xüsusi emala məruz qalmır, onun istehsalı zamanı yarpaqlar soldurulmadan kəskin su buxarına verilərək qurudulur. Belə emal nəticəsində yaşıl çay yarpağının tərkibindəki xlorofil, aşı maddələr və S vitamininin miqdarı azalmır. Ona görə də isti və quru iqlim şəraitində yaşıl çay bədənin tonusunu və gümrahlığını yüksəldir, hətta az miqdarda içəndə də susuzluğun qarşısını alır və sərinlik bəxş edir.

AZƏRTAC xəbər verir ki, Şərqdə min bir dərdin dərmanı sayılan yaşıl çay güclü antioksidant xüsusiyyətlərə malikdir, orqanizmi müxtəlif zərərli maddələrdən təmizləyir və nəticədə immun sistemi möhkəmlənir, insan cavanlaşır. Yüksək hərarətlə müşayiət olunan müxtəlif iltihabı xəstəliklər və soyuqdəymələr zamanı yaşıl çay yaxşı tərlədici təsir göstərir və zəhərlənmə ilə uğurla mübarizə aparır.

Alimlərin fikrincə, güclü mikrob əleyhinə təsirə malik olan yaşıl çay insanı fəallaşdırır, əqli və fiziki aktivliyi artırır, əhvali-ruhiyyəni qaldırır. Həkimlər onun axşam vaxtlarında qəbul edilməsini məsləhət görmürlər. Səhər tezdən içilən bir fincan yaşıl çay əmək qabiliyyətinin yüksəlməsinə səbəb olur. Yaddaşı və diqqəti artıran yaşıl çay sinir sisteminə müsbət təsir göstərir, depressiyadan çıxmağa kömək edir. Bundan başqa onun qəbulu həm də ürək-damar sistemi üçün faydalıdır, aterosklerozun əmələ gəlməsi riskini azaldır, arterial təzyiqi aşağı salır. Ona görə də hipotoniyadan əziyyət çəkənlərin yaşıl çay içməsi tövsiyə edilmir.

Yaşıl çay damaq iltihabı profilaktikasında ən yaxşı vasitələrdən sayılır, üstəlik də gözəl kosmetik vasitədir. Antiseptik xüsusiyyətləri sayəsində üz dərisindəki səpgilərlə mübarizə aparır, dəriyə tonuslaşdırıcı təsir göstərir. Kosmetoloqlar onu soyuducuda xırda kub formasında dondurmaq və sonra həmin buzlarla üzü silməyi məsləhət görürlər.

Yaşıl çay çini fincanda dəmlənilir, su çox qaynar olmamalıdır, çünki qaynar su çayın dadını və ətrini dəyişir. Yalnız təzə dəm içilməsi məsləhət görülən yaşıl çay süzüləndən sonra ona qaynar su əlavə olunur.

## *TƏBRİK EDİRİK!*



Əbilova Almagülün ad gününü həyat yoldaşı Akif, oğlu Rəşad, Anar, qardaşı Kamal, bacısı Heyvagül, qızı Gündüz, yeznəsi Vüsal və LNS şirkətinin lideri Sevinc xanım başda olmaqla və bütün kollektivi təbrik edir və ona can sağlığı, uzun ömür və xoşbəxtlik arzu edirlər.

*Doğma anaların ülvi məkanı,*
*Kövrək ürəklərdə ən dərin qatda.*
*Evdə hər bir kəsin əsil həyanı,*
*Cənnət anaların ayağı altda.*

*Ömrün uzun olsun, Almagül ana,*
*Həyatına bəzək saf dilək olsun.*
*Övladlar içində şənlən, gül ana,*
*Qoy sənin ad günün mübarək olsun!*

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Kazımova Leyla İmran qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**Pakizə Paşayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**Pakizə Paşayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

## Parataekvondoçularımız beynəlxalq reytinq turnirində 5 medal qazanıblar




Misirin Hurqada şəhərində keçirilən parataekvondo üzrə açıq Afrika çempionatında dörd idmançı ilə təmsil olunan paralimpiya milli komandamızın üzvləri reytinq xallarını artırıblar. SİA-nın məlumatına görə, Azərbaycan Milli Paralimpiya Komitəsindən bildiriblər ki, komandamızın kapitanı, 75 kiloqram çəki dərəcəsində mübarizəyə qatılan Nicat Müslümov K42 və K43 kateqoriyalarında iki qızıl medal qazanıb. Qadın parataekvondoçulardan Röyalə Fətəliyeva (K44, 49 kq) və Aynur Məmmədova (K44, +58 kq) yalnız final döyüşündə məğlub olaraq yarışı gümüş medallarla başa vurublar. Digər kişi idmançımız Elimxan Manafov (K43, 61 kq) yarımfinalda mübarizəni dayandırıb. Komanda hesabında millimiz üçüncü yerdə qərarlaşıb. Nicat Müslümov yarışın ən güclü idmançısı seçilib. Beləliklə, baş məşqçi Fərid Tağızadənin yetirmələri 28 ölkədən 108 idmançının mübarizə apardığı beynəlxalq reytinq turnirini 2 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vurublar.

## UEFA Çempionlar Liqası: "Yuventus" "Atletiko"ya uduzub



Futbol üzrə UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin daha iki oyunu keçirilib. Mərhələnin mərkəzi qarşılaşması sayılan "Atletiko Madrid" doğma azarkeşlər önündə İtaliyanın "Yuventus" komandasını qəbul edib. Görüş madridlilərin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Meydan sahiblərinin heyətində Xose Gimenez (78) və Dieqo Qodin (83) fərqləniblər. Mərhələnin digər oyunu Almaniyada keçirilib. "Şalke" - "Mançester Siti" (İngiltərə) oyunu qonaqların 2:3 hesablı qələbəsi ilə başa çatıb. Komandalar arasında cavab görüşləri martın 14-də keçiriləcək.

## "Sevilya" Avropa Liqasının ilk 1/8 finalçısı olub



Futbol üzrə Avropa Liqasında 1/16 final mərhələsinin cavab oyunlarına start verilib. SİA-nın məlumatına görə, ilk oyun günündə yalnız bir qarşılaşma baş tutub. "Sevilya" səfərdə 1:0 hesabı ilə qalib gəldiyi "Latsio"nu qəbul edib və qələbə qazanıb - 2:0. Bu nəticə İspaniya təmsilçisini 1/8 finala yüksəldib.

## Açıq Avropa turnirində cüdoçularımız da iştirak edəcəklər



Martın 2-3-də Polşanın Varşava şəhərində cüdo üzrə açıq Avropa turniri keçiriləcək. Beynəlxalq Cüdo Federasiyasının saytında yer alan məlumata görə, turnirdə Azərbaycanı kişilərin yarışında 19 idmançı təmsil edəcək.

Tatami ustalarımız Balabəy Ağayev, Davud Məmmədsoy, Oruc Vəlizadə, Əhməd Yusifov (hamısı 60 kq), İbrahim Əliyev, İlkin Babazadə, Mehman Sadıqov, Nurlan Osmanov (hamısı 66 kq), Kərim Allahverdiyev, Kənan Quluzadə (hər ikisi 73 kq), Afiq Səfərli, Fəqan Quluzadə, Araş Ağayi, Naim Hüseynov (hamısı 81 kq), Qurban Qurbanov (90 kq), Kərim Abdullaxanlı (100 kq), Rüstəm Kotsoyev, Şahin Qəhrəmanov, Ayxan Cəfərov (100 kiloqramdan yuxarı) medallar uğrunda mübarizə aparacaqlar. Yarışda artıq 35 ölkədən 291 cüdoçunun iştirakı dəqiqləşib.

## Nihat Kahveci Bakıya gəlir



"Beşiktaş", "Vilyareal", "Real Sosyedad" kimi klublarda çıxış edən türk futbolunun əfsanəsi Nihat Kahveci Bakıya səfər edəcək. Bakı-2019 Avropa Liqası Əməliyyat Komitəsinin məlumatında deyilir ki, martın 3-də keçiriləcək "Bakı 2019: Ulduzlar Finalı" yoldaşlıq oyununda dünyaca məhşur veteran futbolçularla yanaşı, Nihat Kahveci də iştirak edəcək. Bu oyun Bakıdakı Avropa Liqasının finalı ilə əlaqədar təşkil olunacaq.

Qeyd edək ki, N.Kahvecidən başqa sabiq futbolçular Eydur Qudyonsen, Maykl Esyen, Anderson Luis de Souza (Deku), Yeju Dudek, Revaz Arveladze də yoldaşlıq oyununda iştirak edəcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**